Xalqın qəzeti!

# Xalq qəzeti

№ 106 (30800) 23 may 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qərbi Azərbaycana qayıdış tarixi ədalətin tələbidir!



**Mayın 21-də Türkiyənin Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans keçirilib. Qərbi Azərbaycan İcmasının və "Azərbaycan–Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə keçirilən konfransa Azərbaycan və Türkiyədən 250-yə yaxın iştirakçı qatılıb. O cümlədən tədbirin işində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Efkan Ala, sədr müavini Zafer Sırakaya, Türkiyə parlamentinin komitə sədrləri, sədr müavinləri və digər üzvləri, dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, universitet rektorları, elm və iş adamları, media mənsubları iştirak ediblər.**

Tədbirin açılışında Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub və Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb. Daha sonra Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məsclisinin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb. Sonra konfrans öz işini panel müzakirələrlə davam etdirib.

**(ardı 5-ci səhifədə)**

# Dar günün dostluğu

## Avropanın Şərq, Türk dünyasının Qərb dövləti



**"Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə – diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub". Bu sözləri Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatında deyib.**

Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi zirvəöncəsi ikitərəfli görüşdə Azərbaycan və Macarıstan liderlərinin mətbuat üçün verdiyi bəyanatları çox önəmli müsajlarla zəngin idi. Bu da təsadüfi deyildi. Axı, ilk dəfə idi ki, TDT-nin Zirvə toplantısı Macarıstanda keçirilirdi. Baş nazir Viktor Orban bu faktı xüsusi olaraq vurğuladı: "Biz bu təşkilata tamhüquqlu üzv deyilik, müşahidəçi ölkəyik. Ancaq istənilən şəkildə biz bu gün bu Zirvə toplantısına evsahibliyi edirik. Bizi sevindirən digər bir amil odur ki, bu gün beynəlxalq diplomatiyada "qasırğa"nın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə edirlər".

**(ardı 4-cü səhifədə)**

# Türk dünyasının yeni strateji hədəfi

## *Budapeşt zirvəsi və geosiyasi transformasiya*



**2025-ci ilin may ayında Türk Dövlətləri Təşkilatının (TDT) Budapeştdə keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və imzalanmış 71 maddəlik Bəyannamə təşkilatın qlobal arenada artan təsirinin simvoluna çevrildi. Zirvə görüşünün Avropa İttifaqına üzv ölkə olan Macarıstanın ev sahibliyində keçirilməsi tarixi və geosiyasi baxımdan əhəmiyyətlidir. TDT-nin Avropadakı ilk belə yüksək səviyyəli toplantısı təşkilatın regional çərçivədən çıxaraq, daha geniş beynəlxalq platformaya inteqrasiya meyillərini nümayiş etdirdi.**

Türk Dövlətləri Təşkilatının Budapeştdə Zirvə görüşü keçirməsi dərin tarixi və siyasi kontekstdə qiymətləndirilməlidir. Görüş müasir türk dövlətlərinin iştirakı ilə Avropanın mərkəzində – türklərin tarixi coğrafiyasından kənarda – türk irsinin yenidən təsdiqlənməsi və strateji şəkildə gündəmə gətirilməsi deməkdir.

***(ardı 4-cü səhifədə)***

## "Odlar yurdu" TDT-nin "lokomotiv"idir



Səhifə ⇨ 3

## Türk dövlətləri vahid gücə çevrilir



Səhifə ⇨ 7

# Özəl sektor yeni yüksəlişə qanadlanıb

**Azərbaycanda sahibkarlığa dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda özəl bölmənin inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, iş adamlarının maarifləndirilməsi və işgüzar əlaqələrin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü layihələr nəticəsində özəl bölmənin Ümumi Daxili Məhsulda (ÜDM) payı 83 faiz, məşğulluqda isə 78,6 faiz təşkil edib. Eyni zamanda, ölkədə fəal vergi ödəyicilərinin sayı 700 mini keçib. Azərbaycanda 2024-cü ildə açılan iş yerlərinin 90 faizdən çoxu isə özəl sektorun payına düşüb.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin birinci rübü ərzində respublikada 23,4 min (bunun 90,6 faizi qeyri-dövlət sektorunda) yeni iş yeri açılıb. Bu iş yerlərinin 74,4 faizi Bakı şəhərinin, 0,9 faizi Naxçıvan Muxtar Respublikasının, 24,7 faizi digər regionların payına düşüb.

***(ardı 8-ci səhifədə)***

# "Demokratik dilənçilik"

## *Ararat Mirzoyanın növbəti hoqqası*



**Ermənistan rəhbərliyində təmsil olunan şəxslərin əllərinə düşən hər fürsəti anti-Azərbaycan kampaniyasına çevirdikləri məlumdur. Bu mənada ölkənin xarici işlər naziri Ararat Mirzoyanın xüsusi fərqləndiyi də həmçinin. Onun Şərqi Avropanın və Mərkəzi Asiyanın diplomatik təmsilçiləri ilə keçirilmiş toplantıdakı çıxışına da eyni prizmadan yanaşmaq üçün əsaslar var. Doğrudur, Mirzoyan daha çox subliminal tona üstünlük verir, birbaşa ittihamlardan çəkinir və eyhamla danışır. Hər bir halda, nəticə dəyişmir və yazımızda bu barədə söz açacağıq. Ancaq əvvəlcə bir məqama diqqət yetirək.**

Ümumən, hay hakimiyyəti təmsilçiləri bütün beynəlxalq platformalarda, eləcə də xarici auditoriya qarşısında Ermənistanın, guya, demokratik ölkə olmasından dəm vururlar. Təxminən belə: biz demokratikik və buna görə kömək etməlisiniz. Hətta, bəzən kömək borc kimi də təqdim olunur. Sanki, "Ermənistan demokratiyası"nın ayaqda qalmasına yardım bəşəri missiya imiş. Mirzoyan da belə təqdimat dəst-xəttinə sadiqdir. Əlbəttə, buna sadiqlik demək mümkündürsə.

Bir zəruri haşiyə də çıxaq ki, ümumən, tipik hay düşüncəsinə görə, Ermənistan və ermənilər mütləq qorunmalıdırlar. Məsələn, bir vaxtlar qorunmanın başlıca motivini, ermənilərin, guya, eramızın 301-ci ilində xristianlığı ilk qəbul edən xalq olduğu uydurması təşkil edirdi. Yeri gəlmişkən, baş nazir Nikol Paşinyan 2025-ci ilin əvvəllində ABŞ-da dini tədbirdə iştirakı zamanı mövzuya dair nağıl da danışmışdı. Sən demə, 301-ci ildə Ermənistanda krallıq var imiş və kral görüb ki, "xristianlıq yaxşı dindir və onu qəbul edib".

***(ardı 5-ci səhifədə)***

# Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN ödəniş" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125 (Cild I); 2024, № 8, maddə 937) ilə təsdiq edilmiş "ASAN ödəniş" informasiya sistemi haqqında Əsasnamə"nin 7.1.6-cı yarımbəndinə "nömrəsini" sözündən sonra ", habelə icra sənədləri üzrə ödənilməli olan vəsaitlər, icra ödənişi və icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclər və müvafiq icra işinin qeydiyyat nömrəsi barədə məlumatları" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 30 may tarixli 889-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.11.5-ci yarımbəndinin 1-5-ci abzasları aşağıdakı redaksiyada verilsin:

"3.11.5.1. ərazi planlaşdırılması sənədlərinin tələblərinə əməl olunmamasını;

3.11.5.2. özbaşına tikinti işlərinin qarşısının alınmamasını:

3.11.5.2.1. tikintiyə icazənin tələb olunmasına baxmayaraq, tikinti obyektinin belə icazə alınmadan tikildiyini;

3.11.5.2.2. barəsində məlumatlandırma icraatı tətbiq edilən, lakin Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 80.4-cü maddəsinə uyğun olaraq tikinti işlərinə başlanılmasına əsas olmadan tikinti obyektinin tikildiyini;

3.11.5.2.3. tikinti məqsədləri üçün ayrılmamış dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahəsində tikinti fəaliyyətinin həyata keçirildiyini;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 noyabr tarixli 348 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1388 (Cild I) ilə təsdiq edilmiş "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.4-cü bənddə "istədiyi hallarda və müstəqil" sözləri "təşəbbüsü ilə onun" sözləri ilə əvəz edilsin;

2.2. 4.10-cu bənddə "arzusu" sözü "təşəbbüsü" sözü ilə əvəz edilsin;

2.3. 5-ci hissə üzrə:

2.3.1. 5.1-ci bənd üzrə:

2.3.1.1. birinci cümlədə "Tikinti" sözü "Tikintiyə icazə icraatı çərçivəsində tikinti" sözləri ilə əvəz olunsun və həmin cümləyə "rəyi" sözündən sonra "elektron formada" sözləri əlavə edilsin;

2.3.1.2. ikinci cümlədə "Həmin rəy xüsusi mühafizə nişanları olan blankda 3 nüsxədə tərtib olunur, hər bir nüsxə" sözləri "Sifarişçinin təşəbbüsü ilə ekspertiza aparıldığı hallarda ekspert rəyi xüsusi mühafizə nişanları olan blankda tərtib edilərək" sözləri ilə əvəz edilsin;

2.3.2. 5.2-ci bənd üzrə:

2.3.2.1. birinci cümlədə "rəyinin iki nüsxəsi" sözləri "rəyi" sözü ilə əvəz edilsin;

2.3.2.2. ikinci cümlə çıxarılsın;

2.4. 8-ci hissə üzrə:

2.4.1. 8.2-ci bəndin birinci cümləsində "istədiyi hallarda və müstəqil" sözləri "təşəbbüsü ilə onun" sözləri ilə əvəz edilsin;

2.4.2. aşağıdakı məzmunda 8.4-cü bənd əlavə edilsin:

"8.4. Tikintiyə icazə icraatı çərçivəsində tikinti layihələrinin ekspertizadan keçirilməsi üzrə bu Qaydaların 4.1–4.8-ci və 5.2-ci bəndləri ilə müəyyən edilən hərəkətlər şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli 375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1415 (Cild I) ilə təsdiq edilmiş "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.3-cü bəndə "alınmamasını," sözündən sonra "o cümlədən," sözləri əlavə edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.1.2-ci yarımbənd ləğv edilsin;

3.2.2. 5.1.3-cü yarımbənddə "inşa edilən tikinti obyektinin" sözləri "səyyar araşdırma zamanı tikintiyə icazə icraatı başa çatmamış tikinti layihələrinin" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "və bələdiyyələrin" sözləri çıxarılsın;

3.3. həmin Qaydalara 1 nömrəli əlavə üzrə:

3.3.1. "şəxs (fiziki, vəzifəli, hüquqi)" sözləri "vəzifəli şəxs, hüquqi şəxs" sözləri ilə əvəz edilsin;

3.3.2. "Ərazi planlaşdırılması sənədlərinin (ümumi plan, baş plan, müfəssəl plan) tələbləri pozulmaqla və yaxud müvafiq qaydada sənədləşdirilmədən" sözləri "Şəhərsalma sənədlərinin (qüvvədə olan müfəssəl planın, belə plan olmadıqda və ya onun müddəti bitdikdə, tikintiyə icazə verilməsinin mümkünlüyünün Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 11-ci maddəsinə, o cümlədən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə uyğunluğunun) tələbləri pozulmaqla" sözləri ilə əvəz edilsin;

3.3.3. "ümumi pozuntular" sözləri "pozuntular (hər bir pozuntu ayrıca təsvir olunmaqla)" sözləri ilə əvəz edilsin;

3.3.4. "Qeyd" hissəsində ", fiziki və ya" sözləri "şəxsin və" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 534 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 540 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sökülməsi Qaydaları"nın 4.2.8-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.2.8. tikintiyə icazə verən orqanın (qurumun) tikinti obyektinin tikintisinə icazə verilməsindən imtina edilməsi barədə qərarının və ya tikintiyə icazənin tələb olunduğu hallarda tikinti obyektinin belə icazə alınmadan özbaşına tikilməsi barədə məktubunun rekvizitləri;".

**5.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli və 14 aprel tarixli 363 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 22-ci hissənin "Göstərdiyi xidmətlər" sütununun 2-ci və 3-cü bəndləri ləğv edilsin;

5.2. 26-cı hissənin "Göstərdiyi xidmətlər" sütununun 1-ci bəndinə "verilməsi" sözündən sonra "(tikintiyə icazə icraatı çərçivəsində texniki şərtlərin verilməsi istisna olmaqla)" sözləri əlavə edilsin.

**6.** "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 dekabr tarixli 434 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12, maddə 2591 (Cild I); 2024, № 6 (I kitab), maddə 645) 1.1.1-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

6.1. birinci cümləyə "verilməsi" sözündən sonra "(tikintiyə icazə icraatı çərçivəsində texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi istisna olmaqla)" sözləri əlavə edilsin;

6.2. ikinci cümləyə "əsasında," sözündən sonra "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 647, № 12 (II kitab), maddə 1369) 3-cü hissəsində "130" rəqəmləri "138" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO adından və öz adımdan Zati-alinizə, hökumətinizə və qardaş Azərbaycan xalqına 28 May – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimizi çatdırmaqdan şərəf duyuram.

Bu əlamətdar bayram Azərbaycan xalqının sarsılmaz qətiyyətinin, suverenliyə, birliyə və tərəqqiyə möhkəm sadiqliyinin rəmzidir.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası həm regional, həm də qlobal miqyasda sülhü və əməkdaşlığı təşviq etməklə yanaşı, davamlı tərəqqi, mədəniyyətin qorunub saxlanılması, təhsilin və elmin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə etmişdir.

Biz ICESCO ilə Azərbaycan Respublikası arasında sıx və səmərəli əməkdaşlıqdan qürur duyuruq, bütün İslam dünyasında təhsili, elmi və mədəniyyəti dəstəkləmək üçün tərəfdaşlığımızı gücləndirməyə sadiq qalırıq. Azərbaycanın təşkilatımızdakı fəal və konstruktiv rolunu, eləcə də ICESCO-nun missiyasına və təşəbbüslərinə davamlı dəstəyinizi yüksək qiymətləndiririk.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı bildirir, möhkəm cansağlığı və uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# T.T.Məcidovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Tələt Tahir oğlu Məcidov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ətraf mühitin və təbii sərvətlərin qorunmasında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Həsənov Ərəstun Həsənağa oğlu
Qənbərov Mirsalam Böyükağa oğlu
Sefiyev Amil Mirdaməd oğlu
Şiralıyev Mayıs Ağahüseyin oğlu
Tarverdiyev Qafar Hüseyn oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Aslanov İlqar Vaqif oğlu
İbadova Sevinc Qafar qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə **qərara alıram:**

**1.** Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix memarlıq abidəsində bərpa və konservasiya işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 (bir) milyon manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1 ci hissəsində göstərilən bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini növbəti illərdə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2025-ci il**

# Mərkəzi Seçki Komissiyasının iclası

**Mayın 22-də Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda əvvəlcə Komissiyanın martın 18-də keçirilmiş iclasının protokolu təsdiq olunub.**

Sonra bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyası aparılan müzakirələrin ardınca 42 saylı Sumqayıt birinci, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 58 saylı Xaçmaz kənd, 62 saylı Kürdəmir, 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər və 108 saylı Ağstafa seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunmasına qərar verib.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin cari məsələlərə də baxılıb.

***XQ***

# Azərbaycan və Türkiyə liderlərinin Budapeşt mesajları

**Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatı (TDT) Dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü keçirildi. Qurumun bütün tədbirləri kimi, bu toplantısı da həm türk dünyasına, həm də bütövlükdə, beynəlxalq aləmə vacib mesajların verilməsi ilə yadda qaldı.**

Tam əminliklə deyə bilərik ki, görüş TDT-nin dünyanın qlobal inteqrasiya təşəbbüslərinə, siyasi və iqtisadi inkişaf yükünün parametrlərinə sadiqliyinin vurğulanması ilə yadda qaldı. Daha doğrusu, təşkilat mövcud trayektoriyada özünün iddialı təsisat olduğunu vurğuladı. Bunu görüşün yekunları ilə bağlı imzalanmış bəyannamənin mətnində yer alan məsələlərin geniş spektri də təsdiqləyir.

Bəli, TDT Macarıstan toplantısı ilə özünü beynəlxalq aləmə mühüm aktor kimi xatırlatdı. Şübhəsiz, qurumun Azərbaycanın 2025-ci ildə evsahibliyini gerçəkləşdirəcəyi 12-ci zirvə görüşü bu mənada daha fundamental qərarların çıxarılması ilə yadda qalacaq. İndilik isə TDT-nin ideya genişliyi kazusunu vurğulayan bir vacib məqama diqqət yetirək.

***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan TDT Dövlət başçılarının görüşündə bildirdi ki, keçmişdə Kiprdə, Qarabağda, Bosniyada, bu gün isə Qəzza zolağında baş verən faciələr TDT-yə üzv dövlətlər qarşısında sərhəd anlayışına fərqli yanaşmaq, yəni, miqyası geniş götürmək və bu genişliyə uyğun düşünmək vəzifəsini müəyyənləşdirib. Hesab edirik ki, bu, adi fikir deyil və özündə böyük məna çalarlarını daşıyır.

Əvvəla, cənab Ərdoğan keçmişdən nəticə çıxarılmasının vacibliyini önə çəkir. Əlbəttə, bu vaciblikdə müasir dövrlə uyğunlaşmaq, onun tələb və təkliflərini nəzərə almaq əzmi var. Çünki, mahiyyətcə, hazırda dünyada yaşanan hadisə və proseslər keçmişin acı təcrübəsinin təkrarlanması riskini formalaşdırmaq potensialındadır. Ona görə TDT və Türk dünyası, ən azı, passiv dayanmamalıdır. Başqa sözlə desək, Türkiyə lideri geridə qalmış atların güllələndiyi düzəndə daha güclü təşkilatlanmanın əhəmiyyətinə dair mesaj verir. Nəzərə alaq ki, o, mesajının konkret konturunu da diqqətə çatdırır.



Əlqərəz, Ərdoğan Türk dünyasının coğrafi üstünlükləri üzərində dayanır: "Şərq və Qərb arasında təhlükəsiz və fasiləsiz əlaqəni təmin edən və strateji bir marşrut kimi ön plana çıxan Orta Dəhliz"dən söz açır: "Biz Orta Dəhlizin uğuru üçün Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət veririk və təşkilata üzv dövlətlərin dəstəyinə ümid edirik".

***

Azərbaycan Orta Dəhliz ideyasının reallaşmasında mühüm halqadır. O da məlumdur ki, indiki durumda Ermənistan özünün anti-sülh dəstxəti ilə təkcə ölkəmizə deyil, eyni zamanda, Orta Dəhlizə müqavimət göstərir. Daha doğrusu, İrəvan məsələyə öz interpretasiyası ilə yanaşır ki, bunda ciddi avantürizm meyili var. Bu meyil Azərbaycanda və Türkiyədə, kifayət qədər, yaxşı dərk edilir. Əslində, TDT-yə üzv dövlətlər də durumun fərqindədirlər. Amma...

Rəsmi İrəvan irəli sürdüyü "Dünyanın kəsişməsi" təşəbbüsü ilə Ermənistanı Cənubi Qafqazın açar fiquruna çevirmək niyyətindədir. Özü də bu məqsəd yalnız onun özünün yox, həmçinin xaricdəki havadarlarınındır. İkincilər "erməni kartı"nı aktiv saxlamaq fikrindədirlər ki, bu kartın təhdidedici mahiyyətini Azərbaycana davamlı təsir imkanına çevirsinlər. Ermənistanın "Dünyanın kəsişməsi" ilə Orta Dəhlizə interpreativ yanaşma tərzi də bundan qaynaqlanır.

Bir halda ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan barış sazişi ilə bağlı şərtlərimizin yerinə yetirilməsindən danışmır, Avropa İttifaqına üzv dövlətlərə, bütövlükdə, Avropaya, həm rəsmi, həm də ictimai səviyyədə Azərbaycanı ölkəsi ilə hay avantürizminin qorunduğu sülh müqaviləsini imzalamağa vadar etmək çağırışını səsləndirir, habelə, regonal əməkdaşlıq modeli kimi, "Dünyanın kəsişməsi"ni bütün beynəlxalq platformalarda fəal təbliğ edir, deməli, rəsmi İrəvanın hansı məqsədin gerçəkləşməsinə xidmət etdiyi ortadadır. Əlbəttə, buna qarşılıq Ərdoğanın TDT-yə üzv dövlətləri Orta Dəhliz mövzusunda dəstəyə səsləməsi təbii və məntiqidir.

TDT-nin Macarıstan Sammitindəki çıxışı zamanı Cənubi Qafqazda sabitliyin təminatında Azərbaycanın rolunu xüsusi vurğulayan Ərdoğan bunu da bildirib: "Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət, heç şübhəsiz ki, Türk dünyamız üçün bir çox imkanlar yaradacaq. Bu baxımdan müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək lider olaraq adını tarixə yazdıracağına əminəm".

Türkiyə liderinin dilə gətirdiyi tezislər pafosdan uzaq və real qiymətləndirilməlidir. Çünki onun düşüncəsindəki sülh aktiv xassəyə malikdir. Sülh aktivliyinin məqsəd və məramını da vurğuladıq. Sərfəli və risklərdən uzaq mahiyyətini də həmçinin. Yəni, Türkiyə lideri, əslində, deyir ki, Azərbaycan özünün prinsipial və qətiyyətli mövqeyi ilə regional inkişaf, o cümlədən, bu inkişafın mühüm katalizatoru olacaq Orta Dəhliz ideyası uğrunda səylər göstərib və göstərməkdədir. Prezident İlham Əliyevin TDT-nin Macarıstan zirvəsindəki çıxışı zamanı vurğuladığı məqamlar da məhz bununla bağlıdır.

***

Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcminin 2024-cü ildə 11 milyon ton təşkil etdiyini xatırladan ölkəmizin lideri də diqqəti Orta Dəhliz üzərində cəmləyib. Eyni ilə Ərdoğan kimi. Eyni zamanda, bir qədər detallı: "Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta Dəhlizin bir hissəsi olan Bakı – Tbilisi – Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır. Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq. Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir".

Hesab edirik ki, mesaj aydındır. Yəni, Azərbaycan Türk dünyasının tranziti baxımından vacib nöqtədir və bu, öz yerində. Amma ölkəmiz yalnız coğrafi şəraitin verdiyi imkanlarla öyünmür, eyni zamanda, malik olduğu təbii xüsusiyyəti sabit dividendə çevirmək naminə fəaliyyət göstərir, üzərinə düşən missiyanı ləyaqətlə yerinə yetirir. Daha dəqiq desək, Azərbaycan TDT dövlətləri üçün də rifah və asayiş vəd edən son dərəcə perspektivli layihənin reallaşması naminə maliyyə resursları xərcləyir. İndi qalır, buna qurumun müştərək adekvat münasibət göstərməsi. Adekvat münasibətin nədən ibarət ola biləcəyini isə Ərdoğan açıqladı və bu barədə bəhs etdik. Belə qənaətə gəlirik ki, Türkiyə lideri TDT-yə üzv dövlətlərin hamısının, belə demək mümkünsə, əlini daşın altına qoymasının vacibliyini vurğulayır və çox doğru olaraq, sərhəd anlayışını ikinci plana çıxarır. Hesab edirik ki, təşkilatın Macarıstan zirvəsində səslənmiş ən mühüm mesajlardan biri də məhz budur. Mesajın hansı əməli nəticələr verəcəyini isə qarşıdakı zaman kəsiyi göstərəcək.

***Ə.RÜSTƏMOV***
***XQ***

# "Odlar yurdu" TDT-nin "lokomotiv"idir

**Tarixi bir dönəmdə yaşayırıq. Bu dönəmi xarakterizə edən amillərdən biri, bəlkə də, birincisi, Türk dövlətlərinin bir-birinə bu qədər yaxın olmaları, mədəni, iqtisadi, siyasi və hərbi vəhdətə sahiblənmələridir. Türkdilli xalqların şərəflə addımladığı bu yol öz başlanğıcını 33 il əvvəl –1992-ci ildə Azərbaycanın Naxçıvan bölgəsi ilə Türkiyə arasında "Ümid" körpüsünün açıldığı tarixdən götürür. İki dövlətin sərhədində, Araz çayı üzərində salınan bu körpü təkcə qardaş xalqları bir-birinə bağlayan nəqliyyat dəhlizi deyildi. Həmin körpü sonradan Azərbaycan və Türkiyə üzərindən türkdilli dövlətlərə uzanan nəqliyyat qollarının, bir əsrə yaxın ayrı düşmüş türk elləri arasında qarşılıqlı təmasların yaranmasına vəsilə oldu. Bəli, bu gün Türk dünyası geniş geosiyasi coğrafiyada getdikcə mövqeyini gücləndirən, ən nüfuzlu beynəlxalq platformalarda sıçrayışlı irəliləyiş nümayiş etdirən vahid alyansa çevrilib. Bu alyansın təşkilatçısı və hərəkətverici qüvvəsi Türk Dövlətləri Təşkilatıdır.**

* * *

TDT-nin budəfəki sammitinə xüsusi maraq və diqqət göstərilirdi. Bunun bir səbəbi kimi çağdaş dünyanın üzləşdiyi qlobal problemlərin həllini asanlaşdırmağa qadir olan təşkilatın nüvəsi kimi Azərbaycan haqqında beynəlxalq ictimaiyyətdə təsəvvürün güclənməsini göstərə bilərik.

BMT-nin COP29 iqlim konfransına evsahibliyi etməklə "qlobal sıçrayışa" imzasını atmış Azərbaycan dünyanın "böyük gücləri"nin tanıdığı və hesablaşdığı iriçaplı aktor kimi qəbul olunur. Bu, təkcə diplomatik uğur deyil, həm də ölkəmizin neft ixracatçısından qlobal layihələrin memarına və icraçısına çevrilməsinin təsdiqləyici faktorudur. Məhz bu kontekstdən yanaşanda, Azərbaycan Prezidenti İlham Əliyev TDT-nin Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə toplantısındakı çıxışı bir neçə aspektdən əhəmiyyət kəsb edir. Nəticələri gözləyərək, dərhal qeyd edəcəyik ki, bu çıxış, sadəcə, görülən işlərin hesabatı deyil, həm də mərkəzində Bakının rolunun getdikcə daha çox göründüyü türk ölkələrinin inteqrasiyasında yeni mərhələnin bəyannaməsi idi. Dövlətimizin başçısının çıxışının inamlı və praqmatik tonu Azərbaycanın regionda iqtisadi, nəqliyyat və diplomatik qovşaq kimi artan təsirini əks etdirirdi.

## *Bu ortaq yolun "hərəkət trayektoriyası" Azərbaycandan keçir*



Azərbaycan Prezidenti İlham Əliyev TDT-nin Budapeşt Zirvə görüşündə çıxışında Macarıstanla əlaqələrimizin inkişafının məmnunluq doğurduğunu dilə gətirdi. "Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır. Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm". Dövlət başçımızın bu sözlərini Azərbaycan–Macarıstan münasibətlərinin bütün kompleksini, bir gün əvvəl Baş nazir Viktor Orbanla görüşü kontekstində nəzərdən keçirsək, deyə bilərik ki, dünyada qütbləşmənin artması fonunda Macarıstan və Azərbaycan müstəqil xarici siyasət yürüdən suveren dövlətlər imicini çatdırırlar.

Belə bir qənaətə gəlmək olar ki, İlham Əliyevin çıxışı, sadəcə, TDT-nin qazandığı uğurların nümayişi deyil, böyük coğrafiyanın strateji "yol xəritəsidir". Azərbaycan ənənəvi suverenlik prinsipindən əl çəkmədən fəal inteqrasiya modelini təklif edir. Bu isə Türk dünyasının tələb etdiyi formatdır. Eyni zamanda, Azərbaycan lideri ölkəmizin türk inteqrasiyasının lokomotivi kimi imicini deklarativ ritorika ilə deyil, konkret nəticələrin və strateji təşəbbüslərin nümayişi ilə möhkəmləndirib.

Zirvə görüşünün yekunu olaraq Budapeşt Bəyannaməsi qəbul edilib. Bəyannamədə yaşıl enerji layihələrinin həyata keçirilməsi, dayanıqlı infrastrukturun inkişafı və üzv dövlətlər arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında sazişin qüvvəyə minməsi alqışlanır. Bəyannamənin bu bəndi İlham Əliyevin nitqinin leytmotivini də təsdiqləmiş olur – infrastruktura qoyulacaq yatırımlar Türk dünyasının gələcəyinin iqtisadi təminatıdır.

* * *

Əminliklə deyə bilərik ki, Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan türkdilli ölkələr arasında əlaqələri daha da gücləndirmək məqsədi daşıyan strateji təşəbbüslərə rəhbərlik edir. TDT ətrafında cərəyan edən bu təşəbbüslər təkcə regional əməkdaşlıq üçün deyil, həm də vahid Türk dünyasını – Turan Birliyini yaratmaq yolunda uzaqgörən səylər kimi dəyərləndirilməlidir. Bu səylər 2009-cu ildə Naxçıvan Sazişi ilə əsası qoyulan TDT-ni qarşılıqlı etimadı, sülhü və rifahı təşviq edən dinamik qlobal platformaya çevirib. On-on beş il bundan əvvələ qədər Azərbaycan və Türkiyəni çıxmaq şərtilə digər türk dövlətləri bu platformaya yaxınlaşmağa tərəddüd edir, birlikdən kənarda durmağa üstünlük verirdilərsə, bu gün tamamilə fərqli mənzərəni görürük. İndi TDT-nin hər bir üzvü bacardığı qədər bu prosesi irəli aparmağa, çiyinlərini bu yükün altına qoymağa həvəsli və maraqlıdır. Çünki artıq hər bir türk dövləti təhlükəsizlik və sabitliyin, qlobal təhdidlərdən sığortalanmanın birlik və bərabərlikdən keçdiyinin fərqindədir. Bu baxımdan, XXI əsrin Türk əsri olacağını deyənlər heç də yanılmayıblar. Azərbaycan TDT-nin uğurlu gələcəyinin formalaşmasında mərkəzi fiqur, daşıyıcı lokomotiv kimi çıxış edir, təşkilatın dünya çapında rolunu və nüfuzunu artırmaq üçün strateji mövqeyindən və geosiyasi uğurlarından yararlanır.

Ölkəmizin TDT-də fəal iştirakı onun digər türkdilli xalqlarla tarixi və mədəni əlaqələrindən, eləcə də regional məsələlərdə fəal iştirak etmək niyyətndən irəli gəlir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın TDT üzrə strategiyası dəqiq müəyyən edilib. Prezident TDT-ni təkcə Türk dünyasının kollektiv maraqlarına cavab verən təşkilat kimi deyil, həm də sülh, sabitlik və qarşılıqlı inkişafın mayakı rolunu oynayan əsas platforma kimi nəzərdə tutur. Bu yanaşmanın nüvəsində vahid Türk dünyasının beynəlxalq aləmdə öz üzvlərinin hüquq və mənafelərini müdafiə edərək qlobal işlərə əhəmiyyətli təsir göstərə biləcəyi inamı dayanır. Türkdilli ölkələr arasında birlik, ortaq məqsəd və hədəflər hissini gücləndirməklə Azərbaycan həm daxili çağırışları, həm də xarici təzyiqləri effektiv şəkildə həll edə bilən sabit və firavan region yaratmağı hədəfləyir.

Sonda bir daha qeyd etməyi vacib sayırıq ki, Prezident İlham Əliyev TDT-nin strateji əhəmiyyətini vurğulayan zaman onu öz komandasının prioriteti statusunda görür. Bu status təkcə regional əlaqələri gücləndirmək deyil, həm də beynəlxalq münasibətlərdə vahid cəbhə yaratmaq üçün daha geniş ambisiyanı özündə əks etdirir.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi şərhçi**



– Müasir dövrdə Türk birliyinin yenidən qurulması və formalaşması, yeni çağırışlara qoşulması həm təşkilatçılıq, həm də ideoloji baxımdan çox vacib məsələlərdir. Bu prosesi ərsəyə gətirən və əməli işlərlə möhkəmləndirən Heydər Əliyev olub. Siyasi hakimiyyətə qayıtdıqdan sonra Ulu öndər Türk dünyasının müasir dönəmdə missiya, vəzifə və imkanlarını nəzərdən keçirdi, digər tərəfdən "Qafqaz 20" məsələsini gündəmə gətirdi. Doğrudur, bu ideyanın gerçəkləşməsi ermənilərin günahı ucbatından hələlik problematik görünür, amma bu məqsədmizə də çatacağıq.

Biz görürük ki, Prezident İlham Əliyev indiki mərhələdə, xüsusilə 2009-cu ildə Naxşıvanda Türk Birliyi Əməkdaşlıq Şurasının təsis toplantısını reallaşdırmaqla, əsas prioritetləri müəyyən etdi və bildirdi ki, bizim yolumuz Türk ailəsinə doğrudur. Bu sözləri parlamentdəki çıxışında da dünyaya bəyan etdi. Əsas məsələ ondan ibarətdir ki, dünya nizamı yenidən formalaşır, qlobal sistemin oturuşması bir qədər ağrılı prosesdir. Tarix göstərir ki, yeni dünya düzəni qlobal kataklizmlər, fəlakətlər və müharibələrdən sonra baş verir. Birinci Dünya müharibəsindən sonra Xalqlar liqası, İkinci Dünya savaşından sonra BMT böyük kataklizmlərin nəticəsində ortaya çıxıb. Dünya qaydalara riayət etdiyi halda özünün sabit axarı ilə yaşayır.

Avropa İttifaqı dünyanın nəhəng güc mərkəzlərindən biri olaraq çox zəif, xaotik, hətta böhran dövrünü yaşayır. ABŞ-ın məlum prosesdən yaxasını kənara çəkməsi Avropa qitəsi üçün faciəyə çevrilə bilər. Məhz belə bir vəziyyətdə Türk Dövlətləri Təşkilatı dünyanın əsas aktorlarından birinə çevrilməkdədir. Burada Azərbaycanın, onun lideri İlham Əliyevin rolu müstəsna xarakter daşıyır. O, heç kəsin edə bilmədiklərini reallaşdırdı. Ən azı, İkinci Qarabağ müharibəsində Zəfər qazanmaqla Türk dünyasına yeni nəfəs vermiş oldu. Mərkəzi Asiyadakı qardaşlarımızı hərəkətə gətirdik. Azərbaycan öz zəfəri ilə yolgöstərən, qurucu ölkə olduğunu sübut elədi. TDT-nin şuradan sağlam təməllərə və nüfuza malik alyansa çevrilməsi də Azərbaycanın hərbi-siyasi uğurları sayəsində mümkün oldu. İndi ölkəmiz TDT-nin vasitəsilə dünyaya həm sərt, həm yumşaq, həm də ağıllı gücün mesajlarını çatdırır.

# Türk dünyasının yeni strateji hədəfi

(əvvəli 1-ci səhifədə)

Türk xalqları tarix boyunca Avrasiyanın müxtəlif bölgələrinə yayılmış, bu coğrafiyalarda yalnız hərbi deyil, həm də mədəni, siyasi və iqtisadi təsir izləri buraxmışlar. Avropada bu təsir, əsasən, Hun, Avar, Qıpçaq, Peçeneq, Bolqar və Osmanlı kimi müxtəlif türk siyasi qurumları vasitəsilə özünü göstərmişdir. Xüsusilə, Hun hökmdarı Attilanın Avropada yaratdığı siyasi gərginlik, Roma imperiyasını danışıqlara məcbur etməsi türk siyasi ağırlığının ilk nümunələrindən biri sayılır. Daha sonra, Avar Xaqanlığı Mərkəzi Avropada təsir dairəsi quraraq bu ərazidə türk varlığını sabitləşdirmişdir. Balkanlarda Bolqar xanın qurduğu dövlət və Osmanlı imperiyasının yüzilliklər boyu bölgədəki hakimiyyəti türk mədəniyyətinin və idarəetmə modelinin Avropa kontekstinə daxil olması ilə nəticələnmişdir.

Tarixə baxış Macarıstanın Türk Dövlətləri Təşkilatına olan marağını daha anlaşılan edir. Macar elmi və siyasi dairələri özlərini tarixi Hun və Avar mirası ilə əlaqələndirərək, türk dünyası ilə ortaq mədəni bağları vurğulamağa çalışır. Budapeştin bu sammitə ev sahibliyi etməsi isə Türk dünyasının Avropada nüfuz dairəsini genişləndirmək istiqamətində strateji niyyəti ortaya qoyur.

Macarıstanın TDT-yə müşahidəçi statusundan çıxaraq daha fəal iştirakçıya çevrilmək istəyi Avropada alternativ geosiyasi qütb axtarışlarının da bir göstəricisidir. Qərb təsirindən nisbətən uzaqlaşmağa çalışan və çoxtərəfli diplomatik balans siyasəti yürüdən Budapeşt rəhbərliyi Türk dünyası ilə əməkdaşlığı həm tarixi mirasa söykənən, həm də iqtisadi-siyasi faydalar gətirən bir platforma kimi qiymətləndirir ki, bu da Avropada TDT-nin yumşaq gücünün yeni forması kimi təhlil oluna bilər.

Beləliklə, TDT-nin Budapeştdə Zirvə keçirməsi türk tarixi irsinin Avropada yenidən aktuallaşdırılması, tarixi yaddaşın siyasi kapitala çevrilməsi və türk dövlətlərinin transregional təsir gücünün sərgilənməsi baxımından strateji əhəmiyyət daşıyır. Hadisələr həm də Qərb və Şərq arasında yerləşən ölkələrin yeni güc mərkəzlərinə doğru meyillənməsinin bir əlaməti qəbul edilə bilər.

Türk Dövlətləri Təşkilatının Budapeşt Zirvəsində qəbul edilən mötəbər Bəyannamə təkcə təşkilatın daxilindəki koordinasiyanın və institusional çərçivələrin möhkəmləndirilməsi baxımından deyil, həm də regional və qlobal diplomatiyada yüksələn aktor kimi TDT-nin iddialarını və potensialını nümayiş etdirməsi baxımından strateji əhəmiyyət kəsb edir. Həmin sənədin məzmunu təşkilatın beynəlxalq sistemdə aktiv mövqeyə sahib olmaq niyyətində olan çoxölçülü diplomatik platforma olduğunu təsdiqləyir.

Bəyannamədə üzv dövlətlərin siyasi, iqtisadi, enerji, müdafiə və təhlükəsizlik sahələrində daha sıx inteqrasiyaya hazır olduqlarını bildirmələri TDT-nin gələcəkdə klassik regional təşkilat modelindən






çıxaraq funksional bloklaşma yolunda irəlilədiyini göstərir və bu, Türk dünyasında qərarların çoxtərəfli məsləhətləşmələr və institusional çərçivə daxilində qəbul edilməsinə yönəlmiş diplomatik mədəniyyətin formalaşmasına işarədir.

Sənəddə beynəlxalq məsələlərə dair vahid mövqelərin formalaşdırılması və koordinasiyalı fəaliyyət çağırışları TDT-nin qlobal diplomatiyada "əhəmiyyətli aktor" kimi çıxış etməyə başladığını göstərir. Qəzzadakı humanitar böhranla bağlı vahid mövqe və siyasi bəyanat təşkilatın beynəlxalq humanitar məsələlərdə etik və prinsipial mövqe sərgiləmək istədiyini əks etdirir. Fikrimizcə, bu amil, bir tərəfdən təşkilatın yumşaq güc potensialını artırır, digər tərəfdən isə İslam dünyasında və qlobal Cənubda legitimliyini genişləndirə bilər.

Əfqanıstan və Suriya kimi mürəkkəb geosiyasi məsələlərə dair birgə yanaşma istəyi üzv dövlətlərin regional təhlükəsizlik arxitekturasında daha aktiv rol oynamaq niyyətinin ifadəsidir və bu addım Türk Dövlətləri Təşkilatının regional təhlükəsizlik mexanizmi formalaşdırmaq potensialının dəyərləndirilməsinə şərait yaradır.

Xüsusilə, beynəlxalq təşkilatlarda qarşılıqlı namizədlik dəstəyi məsələsinin vurğulanması təşkilatın öz içində siyasi həmrəyliyi gücləndirməklə yanaşı, qlobal miqyasda təsir gücünü artırmaq üçün praktiki diplomatik alətlərdən istifadə etdiyini göstərir və üzv dövlətlərə BMT, İƏT, UNESCO kimi beynəlxalq qurumlarda daha güclü mövqelər qazanmaq imkanı yaradır .

Ümumilikdə, Budapeşt Zirvəsində qəbul edilən Bəyannamə TDT-nin siyasi transformasiyasını və institusional yetkinliyini göstərir və sənəd təşkilatın yalnız etnomədəni bağlılıq əsasında deyil, ortaq siyasi iradə və strateji maraqlar əsasında birləşdiyini göstərən bir çərçivə kimi çıxış edir.

Türk Dövlətləri Təşkilatının Budapeşt Zirvəsində iqlim gündəminə dair qəbul edilən yanaşmalar təşkilatın beynəlxalq diplomatiyada yeni və vacib istiqamətdə – "yaşıl diplomatiya" sahəsində – iddialı addımlar atmağa başladığını göstərir. Azərbaycanın COP29-a ev sahibliyi etməsi və bu çərçivədə irəli sürdüyü "Bakı İqlim Birliyi Paktı" təşəbbüsü TDT üçün qlobal davamlılıq diskursunda fəal iştirak baxımından strateji fürsət yaradır. Zirvə iştirakçılarının bu təşəbbüslərə verdiyi dəstək TDT-nin ekoloji məsuliyyətə əsaslanan diplomatik platformaya çevrilmək niyyətini ortaya qoyur.

"Yaşıl" enerji dəhlizlərinin qurulması, tullantıların idarə olunması və iqlimədavamlı infrastruktur layihələrinin təşviqi kimi konkret təşəbbüslər təşkilatın dayanıqlı inkişaf hədəfləri ilə də uyumlu hərəkət etdiyini göstərir. TDT-nin "Türk Yaşıl Baxış" adlı strateji sənədi "yaşıl" keçid üzrə üzv ölkələr arasında uzunmüddətli əməkdaşlıq modelinin əsasını qoyan yol xəritəsidir. Bu sənəd təşkilatı yaşıl diplomatiyada normativ güc kimi mövqeləndirmə potensialına malikdir.

Zirvə görüşündə təhlükəsizlik məsələlərinin xüsusi diqqət mərkəzində olması TDT-nin mövcud regional və beynəlxalq çağırışlara uyğun şəkildə funksional transformasiya keçirdiyinin əksidir. Müdafiə sənayesi sahəsində əməkdaşlıq, transmilli cinayətkarlıq və terrorizmlə mübarizə, eləcə də kibertəhlükəsizlik istiqamətində birgə fəaliyyət niyyətləri təşkilatın klassik mədəni inteqrasiya çərçivəsindən çıxaraq, çoxölçülü təhlükəsizlik aktoruna çevrilmək potensialının formalaşdığını təsdiqləyir və bu transformasiya təşkilatı regional sabitlik mexanizmi roluna yaxınlaşdırır, onun geosiyasi əhəmiyyətini artırır.

Budapeşt Sammitində vurğulanan mədəniyyət və gənclik diplomatiyası elementləri TDT-nin öz təsirini təkcə siyasi və iqtisadi sahələrlə məhdudlaşdırmadığını, yumşaq güc alətlərinə böyük önəm verdiyini göstərir. Türk gəncliyinə dair əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi isə təşkilatın gələcək lider nəsillərinin ortaq kimlik, ortaq dil və ortaq strateji baxış ətrafında formalaşdırılması məqsədinə xidmət edir.

Budapeşt Zirvəsində institusional və iqtisadi sahələrdə qəbul edilən qərarlar təşkilatın gələcək fəaliyyətlərinin effektivliyi və strateji davamlılığı baxımından əhəmiyyətli dönüş nöqtəsi kimi dəyərləndirilə bilər. TDT Katibliyinin büdcəsinin artırılması və Türk İnvestisiya Fondunun fəaliyyətə başlaması təşkilatın iqtisadi və maliyyə strukturlarını da möhkəmləndirən funksional beynəlxalq aktora çevrilmək iradəsini ortaya qoyur.

Büdcənin artırılması təşkilatın institusional potensialının genişləndirilməsinə, layihə əsaslı əməkdaşlığın maliyyələşdirilməsinə və ekspertiza imkanlarının gücləndirilməsinə xidmət edəcək. Türk İnvestisiya Fondunun fəaliyyəti isə iqtisadi inteqrasiyanın dərinləşməsi, üzv ölkələr arasında ortaq iqtisadi layihələrin reallaşdırılması baxımından yeni bir mərhələnin başlanğıcıdır.

Bununla yanaşı, Gömrük dəhlizinin sadələşdirilməsi haqqında sazişin qüvvəyə minməsi təşkilat daxilində ticarətin liberallaşdırılması və logistika şəbəkələrinin inteqrasiyası baxımından mühüm addımdır. Nəticə etibarilə, bu saziş TDT-ni qlobal təchizat zəncirlərində daha rəqabətli və əlaqəli bir struktur halına gətirir.

Bütün bu addımlar göstərir ki, TDT artıq sadəcə, ideoloji və mədəni birlik layihəsi olmaqla kifayətlənmir, həm də praktiki, institusional və iqtisadi alətlər vasitəsilə dərin inteqrasiya modelinə doğru irəliləyir. Son olaraq qeyd etmək istərdim ki, Türk dünyasında gələcəkdə bu sinerjinin daha da güclənməsi türk dövlətlərinin beynəlxalq münasibətlər sistemində daha təsirli və görünən mövqe tutmasına zəmin yaradacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dar günün dostluğu

(əvvəli 1-ci səhifədə)

Avropa İttifaqına üzv ölkənin başçısı kimi özünəməxsus xarizmaya və siyasi imicə malik olan Orban xalqının Hun sərkərdəsi Atillanın şəcərəsindən gəldiyini söyləyən ilk macar liderdir. Onun Türk dünyasına, xüsusilə Azərbaycana bəslədiyi rəğbətini ən müxtəlif məkanlarda və tədbirlərdə nümayiş etdirməsinin şahidi olmuşuq. Bu mənada onun Azərbaycanı ölkəsinin "dar günün dostu" kimi tanımasını bəyan etməsi təsadüf sayılmamalıdır.

Budapeştdə səmimi dostluq atmosferində keçən görüşün yekununda Prezident İlham Əliyev mətbuat üçün verdiyi bəyanatında Azərbaycan–Macarıstan əlaqələrinin uğurla inkişafını, ölkələrimizin dost, strateji tərəfdaş olmasını ayrıca qeyd etdi: "Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi kökünə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar, bir-birinə çox yaxındır". Dövlət başçımız əlavə etdi ki, Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur. Bu, mənim Macarıstana 6-cı səfərimdir. Cənab Orban isə Azərbaycana 7 dəfə səfər etmişdir. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır. Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm.

***

Qeyd edək ki, yaşı bir qərinəyə bərabər Azərbaycan–Macarıstan diplomatik əlaqələri son onilliklər ərzində çoxşaxəli tərəfdaşlıq müstəvisinə yön alıb. Bu əlaqələr 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da güclənib. Bu sənəd iki ölkə arasında təkcə ikitərəfli münasibətlərin deyil, həm də regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsini hədəfləyən kompleks çərçivə təqdim edir. Tərəflər bu sənədlə qarşılıqlı hörmət, suverenlik və bərabərlik prinsiplərinə əsaslanan uzunmüddətli əməkdaşlığa sadiq olduqlarını bəyan ediblər. Siyasi sahədə yüksəksəviyyəli dialoqlar, parlamentlərarası münasibətlər və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək etibarlı tərəfdaşlığın təməl sütunlarını təşkil edir.

Liderlərin Budapeşt görüşündən yadda qalan məqamlardan biri də Prezident İlham Əliyevin üzünü macar həmkarına tutaraq ölkələrimiz arasında tale oxşarlığı barədə dedikləri oldu: "Oxşarlıqlardan biri də, Sizin də qeyd etdiyiniz kimi, Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da elə ölkələrdəndir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Bir də, qeyd etdiniz ki, Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik".

Dövlətimizin başçısının zərgər dəqiqliyi ilə xırdaladığı bu incə məqamlar, doğrudan da, Azərbaycanla Macarıstanın bir-birinə möhkəm tellərlə bağlanmasını zəruri edir. Azərbaycanın xarici siyasətinin önəmli istiqamətlərindən biri kimi Mərkəzi və Şərqi Avropa ölkələri ilə, xüsusilə Macarıstanla əlaqələrin möhkəmləndirilməsi ön sırada gəlir. Avropa İttifaqının üzvü olan Macarıstan Azərbaycanın qitə ilə əlaqələrinin inkişafında strateji körpü rolunu oynayan ən etibarlı tərəfdaşıdır. Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə səmimi dostluq münasibətləri, iki ölkə arasında müntəzəm surətdə həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər əməkdaşlığın yeni üfiqlərini açır. Buna iki dost ölkə liderinin qarşılıqlı səfərlərində intensivləşən şəxsi təmasları da dəlalət edir. Azərbaycan Prezidenti Macarıstanda



2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar.

Bu məqamda vacib bir detalı qeyd etməyimiz yerinə düşər. Baş nazir Viktor Orbanın TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak üçün ötən il –Macarıstanın Aİ Şurasına sədrliyi dövründə Şuşaya ilk səfəri mühüm əhəmiyyət kəsb edir. Bu səfərlə, eləcə də COP29-da iştirakı ilə bağlı Aİ rəsmilərinin Orbanı qınamasına, hətta səlahiyyətlərini aşması barədə dediklərinə Macarıstan Baş nazirinin reaksiyası birmənalı oldu. O, Azərbaycan ilə xüsusi münasibətlərini nəzərə alaraq, belə beynəlxalq tədbirdə Aİ-nin sədri kimi deyil, Macarıstanın Baş naziri səviyyəsində iştirak etdiyini bildirmişdi.

***

Bakı–Budapeşt əməkdaşlığının daha da möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri də Azərbaycan–Macarıstan Strateji Dialoqunun təsis edilməsi oldu. Bu çərçivədə ilk iclas 2023-cü ilin sentyabrında Budapeştdə, ikinci iclas isə 2024-cü ilin iyununda Bakıda baş tutdu. Macarıstan Aİ, Avropa Şurası, "Qoca qitə"nin digər siyasi strukturlarında Azərbaycanın maraqlarını daim müdafiə edir. TDT-nin Budapeştdəki Nümayəndəliyi Ofisinin fəaliyyəti və Macarıstanın bu təşkilatda müşahidəçi statusu mədəni və siyasi əməkdaşlıq baxımından xüsusi əhəmiyyətə malikdir. Baş nazir Viktor Orban, Xarici işlər və ticarət naziri Peter Siyarto dəfələrlə bəyan ediblər ki, Macarıstan həm Avropanın ən Şərq, həm də Türk dünyasının ən Qərb dövlətidir. Razılaşın ki, bu, bir Avropa dövləti tərəfindən Türk dünyasına yönəlik çox cəsarətli bəyanatdır. 2023-cü il üçün Şuşa şəhərinin "Türk Dünyasının Mədəniyyət Paytaxtı", Vesprem şəhərinin isə "Avropanın Mədəniyyət Paytaxtı" elan olunması ilə əlaqədar, yanvarın 30-da "Azərbaycanın Şuşa şəhəri və Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin yaradılması və mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalandı. Ümumiyyətlə, iki ölkə arasında humanitar sahədə əməkdaşlığın hazırkı səviyyəsi məmnunluq doğurur. Macarıstan hökumətinin maliyyə dəstəyi ilə "Stipendium Hungaricum" təqaüd proqramı çərçivəsində hər il 200 azərbaycanlı tələbəyə təqaüd ayrılır. Hazırda Macarıstanda 700-ə qədər azərbaycanlı tələbə təhsil alır. Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində Azərbaycan da macar tələbələrin təhsil haqqını ödəyir.

İki dövlətin və iki xalqın dostluğuna dəlalət edən daha bir fakt: 2023-cü il oktyabrın 19-da Macarıstanın Lakitelek şəhərindəki Hunqarikum parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin büstünün açılışı olub. Azərbaycan Dillər Universitetində Macar dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. 2025-ci il mayın 19-da Macarıstanın aparıcı ali məktəblərindən biri olan Eötvöş Lorand Universitetində (ELTE) Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb. Bütün bunlar Azərbaycanın avropalı dostu ilə genişlənməkdə olan əlaqələrinin parlaq gösrətəriciləridir. Əminliklə deyə bilərik ki, bütövlükdə Azərbaycan–Macarıstan əlaqələri hər iki ölkənin strateji məqsədlərinə xidmət edəcək şəkildə inkişafdadır və dostluq münasibətlərinin beynəlxalq arenada yeni tərəfdaşlıq modellərinin yaranmasına səbəb olacağı şübhəsizdir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qərbi Azərbaycana qayıdış tarixi ədalətin tələbidir!

*(əvvəli 1-ci səhifədə)*

Sonda iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib. Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlıların sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə Qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb. Sənəddə, həmçinin Ermənistan hökuməti Qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar.

***

Qeyd edək ki, azərbaycanlıların öz tarixi torpaqlarına – hazırda Ermənistanın tərkibində olan Qərbi Azərbaycana qayıtması mövzusu ölkəmiz üçün həmişə siyasi baxımdan həssas məsələ olub. Ancaq Azərbaycanın suveren ərazisinin 20 faizinin erməni işğalı altında olduğu dövrdə rəsmi Bakı bu məsələni indiki qədər gündəmə gətirə bilmirdi. Ölkəmizin bütün potensialı işğal altındakı suveren ərazilərimizin azad edilməsinə yönəlmişdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsindən və 2023-cü ildəki 23 saatlıq antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz və ərazi bütövlüyümüz tam təmin edildikdən sonra bu məsələ aktuallaşıb. Rəsmi Bakı sovet və postsovet dövründə öz doğma yurdlarından didərgin salınmış yüz minlərlə azərbaycanlının vətənə qayıtmaq hüququnu getdikcə daha gur səslə bütün dünyaya bəyan edir. Ankarada "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da bunu bir daha təsdiqləyib.

Sözsüz ki, istər Ermənistanda, istərsə də dünya erməniləri ilə bağlı olan müxtəlif xarici çevrələrdə Azərbaycanın bu məsələdə tutduğu mövqe kəskin etiraza səbəb olur. Bu etirazlar çox vaxt açıq isterika mərhələsinə keçir. Lakin tarixi faktları diqqətlə öyrəndikdə Bakının haqlı olduğu şübhə doğurmur. Azərbaycanlıların öz torpaqlarına qayıtması tələbi ərazi iddiası deyil, tarixi ədalətin bərpası və beynəlxalq normalara söykənən Azərbaycan xalqının fundamental hüququnun təmin edilməsidir.

Prezident İlham Əliyevin beynəlxalq konfrans iştirakçılarına müraciətində bildirildiyi kimi, Qərbi Azərbaycanda – Ermənistan ərazisində 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz parçası olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə xidmət etmişdir. Bu mənada dövlətimizin başçısının Qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı Ermənistanın aydın mövqe ifadə etməli olmasına dair səsləndirdiyi fikirlər tamamilə əsaslıdır.



Cənab İlham Əliyevin sonrakı fikirləri də mühüm əhəmiyyətə malikdir: "Xüsusi olaraq vurğulamaq istərdim ki, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir". Bu fikirlər Prezident İlham Əliyevin Qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıdışı məsələsində Azərbaycanın rəsmi mövqeyini bir daha aydın şəkildə ortaya qoyduğunu göstərir.

Həqiqətən də, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistanın təqdim etməyə çalışdığı kimi ərazi iddiası deyil. Bu, doğma yurdundan qaçqın düşmüş insanların öz torpaqlarına qayıtmaq hüququnun tanınması məsələsidir. Azərbaycanın mövqeyi BMT-nin müvafiq sənədlərinə və beynəlxalq hüquqa əsaslanır. Yəni hər bir insanın öz doğma yurduna qayıtmaq hüququ var. Bu, siyasi yox, humanitar və hüquqi məsələdir. Ermənistanın qayıdış istəyini məqsədyönlü şəkildə təhrif edərək onu ərazi iddiası kimi təqdim etməsi, əslində, beynəlxalq ictimai rəyə təsir göstərmək və məsələni siyasiləşdirmək cəhdidir. Bu yanaşma konstruktiv dialoqa xidmət etmir və regionda sülhə ziddir.

Qərbi Azərbaycanlıların tarixi torpaqlarına qayıdışı təkcə ədalətin bərpası deyil, həm də Cənubi Qafqazda həqiqi sülhün formalaşması istiqamətində mühüm addım ola bilər. Bakı sülh şəraitində birgəyaşayış və reinteqrasiya konsepsiyasını təklif edir. Bu kontekstdə Qərbi Azərbaycan rəsmi Bakının geri qaytarılmasını tələb etdiyi ərazi deyil, geri qayıdan yerli əhalinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməli olduğu bölgədir. Ermənistanda və müəyyən Qərb dairələrində bunu necə təhrif etməyə çalışsalar da, reallıq budur.

***Səxavət HƏMİD***
***XQ***

## Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Deportasiya edilmiş xalqların öz tarixi torpaqlarına qayıtması beynəlxalq hüquqda nəzərdə tutulub. Bu hüquq Ümumdünya İnsan Hüquqları Bəyannaməsində tanınır və onu bütün ölkələr, o cümlədən deportasiya edilmiş xalqların yerləşdiyi ölkələr üçün hüquqi məcburi tələbə çevirir. Münaqişələr, etnik təmizləmə və ya məcburi repatriasiya səbəbindən insanların köçkünə çevrildiyi və ya deportasiya edildiyi bir çox hallarda bu hüquq tətbiq edilir.

BMT-nin əsas prinsiplərindən biri də Yerli Xalqların Hüquqları Haqqında Bəyannaməsidir. Burada təsbit edilən hüquqların hamısı fundamental insan haqları kimi müdafiə olunan bəşəri dəyərlər toplusuna aiddir.

BMT konvensiyasının vacib prinsiplərindən biri də bütün dünya dövlətlərinin yerli xalqların hüquqlarını, onların tarixi və mədəni irsinin qorunması və hörmət edilməsini təmin etməkdir ki, son illər bunun üçün təsirli tədbirlər görülməsinə ehtiyac yarandığı BMT-nin özü tərəfindən etiraf edilir.

Bunun üçün BMT İnsan Hüquqları Şurasında Yerli Xalqların Hüquqları üzrə Ekspert Mexanizmi kimi köməkçi orqan təsis edilib. Onun mandatı BMT-nin Yerli Xalqların Hüquqları haqqında Bəyannaməsində təsbit edilən yerli xalqların hüquqları, dini, tarixi və mədəni irsinə hörmət edilməsi və qorunması ilə bağlı şuraya ekspert rəyi və məsləhətlər verməklə üzv dövlətlərə bəyannamənin məqsədlərinə nail olmaqda vasitəçilik etməkdir.

Əlbəttə, bu məsələdə üzv dövlətlərin problemlərə yanaşmasında səmimiyyəti vacib rol oynayır ki, deportasiya və repressiya siyasəti ilə monoetnik dövlət formalaşdırmış Ermənistandan belə səmimiyyət gözləmək sadəlövhlükdür. Ermənistanın da qəbul etdiyi Yerli Xalqların Hüquqları haqqında Bəyannamədə yerli xalqların bütün digər xalqlarla bərabər olduğu, eyni zamanda, onların bir-birindən fərqli olmaq, özlərini başqalarından fərqli hesab etmək hüququnun olması və bu hüquqa hörmət etmək öhdəliyi mövcuddur. Lakin bədxah qonşularımızın Qərbi Azərbaycandan olan soydaşlarımıza qarşı deportasiya və soyqırımı siyasəti, yerli xalq kimi azərbaycanlıların bəşəriyyətin ümumi irsini təşkil edən sivilizasiyaların və mədəniyyətlərin müxtəlifliyinə və zənginliyinə töhfəsi olan etnik, milli və mədəni irsini dağıtması, milli kodunun dəyişdirilməsi yönündə cinayətləri bəşəri cinayətlər olmaqla götürdüyü öhdəliklərinə ziddir.

## Ekspert rəyi



**Sahib MƏMMƏDOV,**
**hüquq müdafiəçisi**

– Müxtəlif vaxtlarda Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlıların öz tarixi torpaqlarına qayıtmaları onların təməl hüquqlarından biridir. Bilirsiniz ki, deportasiya 3 mərhələdə həyata keçirilib. Sonuncu mərhələdə deportasiyaya edilənlərlə bağlı müxtəlif rəqəmlər səsləndirilir. Ən azı 250 mindən çox şəxs deportasiyaya məruz qalıb. Əvvəlki dövrdə deportasiya olunanların bir çoxu artıq həyatda deyillər. Onların varisləri var. Amma sonuncu deportasiyaya məruz qalanların əhəmiyyətli hissəsi hələ sağdır. Onlar öz tarixi vətənlərinə qayıtmaq istəyirlər.

Məsələnin hüquqi tərəfi belədir ki, həmin şəxslər, əlbəttə, Azərbaycan vətəndaşlığını qəbul ediblər. Eyni zamanda, onlar Ermənistan vətəndaşlığını itiriblər. Amma BMT-nin Qaçqınların statusuna dair Konvensiyasının birinci maddəsinin "c" bəndində göstərilir ki, mənşə ölkəsinin vətəndaşlığını itirmiş şəxs sonradan könüllü olaraq onu yenidən əldə edə bilər. Bu nöqteyi-nəzərdən soydaşlarımız vətəndaşlığı itirmiş olsalar belə, onu sonradan könüllü surətdə bərpa etmək hüququna malikdirlər. Amma 2022-ci ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin bazasında Qərbi Azərbaycan İcmasının yaradılmasından sonra ermənilər əl-ayağa düşərək vətəndaşlıq haqqında qanunlara dəyişikliklər etdilər. Qayıdış prosesini çətinləşdirmək üçün vətəndaşlıq haqqında qanuna yeni maddə əlavə ediblər. Yəni, Ermənistan bu məsələlərə mane olmaq üçün preventiv tədbirlər görür.

Ancaq biz bu məsələdə israrlıyıq. Biz məsələni beynəlxalq müstəviyə çıxarmağa çalışmalı, üzvü olduğumuz beynəlxalq təşkilatların bununla bağlı qətnamələr qəbul etmələrinə nail olmalıyıq. Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın hüquqlarının sonsuzadək pozulmasına yol verməməliyik. Biz diplomatik, siyasi, lazım gələrsə, digər dinc üsullardan istifadə etməklə qayıdışın reallaşması istiqamətində səylərimizi davam etdirməliyik.

---

# "Demokratik dilənçilik"

**(əvvəli 1-ci səhifədə)**

Bir sözlə, dini avantürizmə alət etmək hay varlığının çoxdankı şakəridir. Hərçənd, Nikolun bu mənada ciddi fərqləndiyini söyləmək olmaz. O, ölkəsində bir çox şeyləri dəyişdiyi kimi, erməni ambisiyalarının həyata keçirilməsindəki "üsul və vasitələrə" də müəyyən korrektələr edib. İndi ambisiyaları başlıca reallaşdırmaq vasitəsi demokratiyadır. Mirzoyanın da səfirlər önündəki nitqinin istinadgah nöqtəsi məhz bu məhfumdur.

***

Beləliklə, A.Mirzoyan dünyanın sürətlə dəyişdiyini, yeni reallıqların formalaşdığını vurğulayır və bildirir ki, ağlagəlməz proseslər fonunda yaşanan olaylardan biri də demokratiyanın hibrid hücumlara məruz qalmasıdır. Bu səbəbdən fundamental dəyərlərin möhkəm sintezinin təminatına ehtiyac var. "Dörd il əvvəl hibrid müharibəsi şəraitində Ermənistan tam azad və demokratik seçkilər keçirməyə nail oldu", – deyən erməni XİN rəhbərinin ölkəsində 2021-ci ilin iyunundakı növbədənkənar parlament seçkilərini nəzərdə tutduğu aydındır. Aydın olmayan onun nə üçün durumu mürəkkəbləşdirib təhrif etməsidir.

Məsələ ondadır ki, 44 günlük müharibədəki rüsvayçılıq nəticəsində Paşinyan hakimiyyətinin seçkiyə getməkdən başqa yolu qalmamışdı. Müharibədən sonra Nikolu satqınlıqda və xainlikdə günahlandıranlar etiraz dalğasını genişləndirmişdilər. Belə bir durumda rəqiblərin əl-qolunu bağlayan məhz seçki oldu. Paşinyan anlayırdı ki, Ermənistandakı revanşist və şovinist kəsimin heç bir sosial dayağı yoxdur (indi də vəziyyət dəyişməyib – red.). Yəni, erməni iqtidarı seçkiyə getməklə, başıpozuqları zərərsizləşdirdi və onların qeyri-ordinar hərəkətlərlə, məsələn zorakı çevrilişlə hakimiyyətə yiyələnmələrinin qarşısını kəsdi. İndi anlaşılmayan məqam isə Mirzoyanın həmin vaxt yaşananları demokratiyaya qarşı hibrid müharibə kimi qələmə verməsidir. Axı səbəb başqa idi. Məgər, Paşinyanın 44 günlük müharibəyə səbəb olmuş "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı, yoxsa onun təyin etdiyi müdafiə nazirinin "Yeni ərazilər uğrunda yeni müharibələr" şüarı, yaxud Nikolun Cıdır düzündə "yallı" getməsi, sərxoş olub yerə sərilməsi demokratiyanın əlaməti idi? Bəlkə həmin vaxt demokratiya özünün həzz anlarını yaşayırdı?

***

Əlbəttə, demokratiya, ilk növbədə, hüquq prinsiplərinə sadiqlikdir. İndiki halda, söhbət beynəlxalq hüquqa riayətdən gedir. Paşinyan və komandasının üzvləri həqiqi demokrat olsaydılar, anlayardılar ki, Ermənistan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini, ona bitişik yeddi rayonu işğal edib və həmin bölgələr geri qaytarılmalıdır. Bunu nəzərə almayıb özünü qövmün rəhbəri, quldur tayfa başçısı kimi aparan Nikolun, necə deyərlər, başı əzilməli idi və əzildi də.

Sözümüz ondadır ki, bu proseslərin təsiri ilə Ermənistanda dörd il əvvəl yaşananları demokratiyaya qarşı hibrid müharibə kimi qiymətləndirmək, ən azından, siyasi vicdansızlıqdır. Görünür, Mirzoyana "demokratik vidansız" olmaq heç bir mənəvi əzab yaşatmır. O zaman belə bir sual verək: 44 günlük müharibədə Ermənistanın məğlubiyyəti aktı kimi qəbul edilən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından çox keçməmiş İrəvanda parlament binasına soxulan kütlənin, o vaxt Milli Assambleyanın sədri vəzifəsini tutan həmin bu Mirzoyanı əzişdirməsi də demokratiyanın üzləşdiyi hibrid hücum idi?

***

Yeri gəlmişkən, Ermənistan hakimiyyəti 44 günlük müharibəyə rəvac verən bəyanatlar səsləndirəndə də məhz demokratiyaya güvənmişdi. Ümumən, rəsmi İrəvan 2018-ci ildən 2020-ci ilin noyabrınadək eyforiya yaşamışdı. Yuxarıda qeyd etdiyimiz sərsəm bəyanatlar da məhz həmin eyforiyanın təsiri ilə verilmişdi. Nikol və tərəfdarları hesab etmişdilər ki, dünya "demokratik Ermənistana" "avtoritar Azərbaycanla" mübarizədə dəstək verəcək.

Çox güman, özünü "demokratiyanın qladiatoru" sayan Paşinyan ölkəmizi dizə gətirməyin, hələ bəlkə Bakını ələ keçirməyin xəyalını da qurmuşdu. Axı o, Ermənistanın əvvəlki liderlərindən fərqləndiyini



gözə soxmaq istəyirdi. Əsl demokratik liderin necə ola biləcəyini sübuta yetirməyə çalışırdı. Nikolun yekunda hansı acınacaqlı vəziyyətə düçar olduğunu bütün dünya gördü. Yəqin razılaşarsınız ki, gerçək demokratiyanın rəzil durumla üzləşmək kimi təhlükəsi yoxdur.

***

Bəli, Ermənistanın indi də qurtula bilmədiyi rəzil durumun səbəbi avantürizmdir. Rəsmi İrəvan 44 günlük müharibədən sonra da tipik erməni xəstəliyinə xas bu xüsusiyyətdən əl çəkmədi. Mirzoyan isə bildirir ki, guya, ölkəsi ötən müddətdə xarici siyasət kursunda diversifikasiya həyata keçirib. Görəsən, Fransa başda olmaqla, Avropa İttifaqının "qucağında oturmaq" nə zamandan diversifikasiya olub? Sualımız ritorikdir.

Erməni iqtidarının xarici siyasəti balanslaşdırmaq xətti kimi qələmə verdiyi kurs birbaşa anti-Azərbaycan mahiyyət daşıyıb və yenə daşımaqdadır. Rəsmi İrəvan ötən müddətdə Bakı ilə sülhün olmaması, yaxud sülhün erməni avantürizmi üçün hansısa tutacaq yer, istinad nöqtəsi saxlaması üçün hər şeyi edib. Fikrimizin sübutu kimi, sonda Mirzoyanın səfirlər önündəki çıxışının daha bir hissəsinə diqqət yetirəcəyik.

***

Erməni XİN rəhbəri Paşinyan tərəfindən irəli sürülmüş "Dünyanın kəsişməsi" təşəbbüsündən söz açıb. Bu "təşəbbüsün" Azərbaycanın Zəngəzur dəhlizi ideyasına qarşı olduğu məlumdur. "Dünyanın kəsişməsi"nin Ermənistanı qlobal kommunikasiya habının açar fiquruna çevirərək güclənməsinə, yenidən avantürist niyyətlərə köklənməsinə hesablandığı da həmçinin.

Azərbaycan, heç bir halda, buna imkan verməyəcək. Ümumən, ölkəmizin razılığı olmadan regionda hansısa irimiqyaslı layihənin gerçəkləşməsi mümkünsüzdür. Mirzoyan isə çıxışında bildirir ki, guya, "Dünyanın kəsişməsi" təşəbbüsü çərçivəsində Ermənistanın İranla və Gürcüstanla produktiv əlaqələri var. Göründüyü kimi, XİN rəhbəri cəfəngiyyat danışır. Ən pisi isə budur ki, belə bir cəfəngiyyat fonunda Azərbaycan subliminal şəkildə pozitiv çağırışlara reaksiya verməyən ölkə qiyafəsində göstərilir.

***

Əlbəttə, böyük pozitiv çağırış sülhdür. A.Mirzoyan çıxışında bilavasitə Azərbaycan – Ermənistan sülh prosesinə də toxunub. "Biz Azərbaycanla hərtərəfli və institusional sülhün bağlanması üçün ardıcıl olaraq çalışırıq. Məlum olduğu kimi, Ermənistan və Azərbaycan sülh müqaviləsi layihəsinin mətnini razılaşdırıblar və Ermənistan onu dərhal imzalayıb ratifikasiya etməyə hazırdır. Hələ məlum deyil ki, Bakı səmimi şəkildə narahatdır, yoxsa süni əngəl törədir. Amma hər şey göz qabağındadır: saziş hələ imzalanmayıb. Avropalı tərəfdaşlarımızı bu prosesi daha fəal dəstəkləməyə çağırırıq. Biz gözləyirik ki, Avropa İttifaqı həm Bakı ilə birbaşa dialoqda, həm də ictimai bəyanatlarda sazişin mümkün qədər tez imzalanmasının zəruriliyini ardıcıl olaraq vurğulayacaq".

Çox güman, Mirzoyanın "demokratik Ermənistan" yönümlü çıxışının "hibrid müharibə" məntiqinin başlıca hədəfinin nə olduğunun fərqinə vardınız. Bəli, yenə beynəlxalq aləmdən dəstək ummaq kimi bir motiv var. Halbuki, rəsmi İrəvanın reallığı görməsi vacibdir. Nəinki görməsi, eyni zamanda, dərk etməsi. Reallıq isə Paşinyan və komandasının avantürizmdən tamamilə daşınmasını zəruriləşdirir. Həm zəruriləşdirir, həm də İrəvan üçün ölüm-qalım məsələsinə çevirir. Bir sözlə, Ermənistan anlamalıdır ki, Azərbaycanla sülh müqaviləsi ölkəmizin iki şərtinin qəbul edilməsindən sonra mümkündür. Şərtlər isə məlumdur – Ermənistan konstitusiyasına dəyişiklik, sənədin işğalçı mahiyyətli, ərazi iddiasına əsaslanmış İstiqlaliyyət bəyannaməsinə istinaddan xilas edilməsi və ATƏT-in özündə artıq olmayan Qarabağ münaqişəsinin varlığını vurğulayan Minsk qrupunun rəsmən ləğvi.

***

Sonda A.Mirzoyanın diqqətə çatdırdığımız sitatdakı anti-Azərbaycan eyhamına gəlincə, bildirək ki, ölkəmiz bütün məsələlərdə səmimidir və bu səbəbdən həyata keçirdiyi hər bir tədbir süni əngəl yaratmağa yox, praqmatizmə və rasionallığa əsaslanır. Azərbaycan, indiki halda sülhü təminatlı etmək, ona fundamental obraz qazandırmaq əzmindədir. Görünən isə budur ki, durumdan narahat olan Ermənistandır və ölkə dayanıqlı sülhü deyil, narahatlıq içində qıvrılaraq, demokratiyanı "siperə" çevirərək, xaricdən mədət ummaq yolu tutursa, çeşidli manipulyasiyalara baş vurursa, nə etmək olar, seçim onundur. Amma nə vaxtadək?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Sərhədsiz reportyorlar” və CPJ çaşqın duruma düşüb

**ABŞ mediası ağır dönəmdən keçir. Donald Tramp komandasının yanvar ayından etibarən başlatdığı “islahatlar dalğası” bu ölkənin peşəkar media qurumlarını maliyyə sıxıntıları ilə üz-üzə qoyub. Beynəlxalq İnkişaf Agentliyinin (USAID) və Qlobal Media Agentliyinin (USAGM) qapadılması onları böyük maddi resurslardan məhrum edib. “Azad Avropa” (“Azadlıq”), “Amerikanın səsi”, “Azad Asiya” radiolarının fəaliyyəti iflic olub. Minlərlə jurnalist iş yerini itirib, işsizlər sırasına qatılıb.**

Yanvar–aprel aylarında qeyri-müəyyən, böhranlı durumda yaşayan bu media qurumlarının son ümidləri məhkəmələrin çıxaracağı qərarlara bağlanıb. Amma ABŞ Apellyasiya Məhkəməsi bu son ümidi də puç edib. May ayının 3-də keçirilən iclasında Apellyasiya Məhkəməsi Donald Tramp komandasını haqlı sayıb, “Amerikanın səsi” (VOA), “Azad Avropa” (RFERL), “Azad Asiya” radiosunun, həmçinin USAİD və USAGM-nin maliyyəsinin kəsilməsi qərarını qüvvədə saxlayıb. Halbuki aprelin 22-də və 29-da keçirilən aşağı instansiya məhkəmələri Konqresin “Amerikanın səsi”, “Azadlıq radiosu” və digərləri üçün təsdiqlədiyi maliyyənin köçürülməsini tələb edən qərarlar çıxarmışdı. Bundan ruhlanan redaksiyalar mayın 2-də öz işçilərinə e-mail göndərərək, onları növbəti günlərdə işə dönməyə hazır olmağa çağırmışdılar. Mayın 3-də isə Apellyasiya Məhkəməsi aşağı instansiya məhkəməsinin bu qərarına fasilə verib, onun VOA işçilərinin işə qayıtmasına göstəriş verməyə hüququnun olmadığını bildirib. Xəbəri “Azadlıq radiosu” özü yayıb (https://www.azadliq.org/a/abs-amerikanin-sesi-hokm/33394426.html).

ABŞ-dakı mövcud media böhranı bununla bitmir. Yeni prezident komandası məşhur media qurumlarını qeyri-peşəkarlıqda ittiham edir, onlarla açıq qarşıdurmaya gedir. Fəaliyyətlərinə müdaxilə edərək, müxtəlif formada əngəllər yaradır. Məsələn, dünyanın ən yaşlı, məşhur və peşəkar informasiya agentliklərindən biri hesab olunan “Associated press”in “Ağ ev”dəki media toplantılarına girişi məhdudlaşdırılıb. Ona qarşı rəsmi formada açıq ittihamlar səsləndirilib. Digər məşhur media subyektləri də bu kontekstdə müxtəlif sıxıntılarla üzləşiblər.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

“Demokratiyanın beşiyi” adlandırılan bir ölkədə medianın bu duruma salınması təkcə ABŞ-da deyil, bütün dünyada məyusluq yaradıb. Çünki “superdövlətdə” yaşanan hər bir hadisə ciddi rezonans doğurur, qlobal cərəyana çevrilir. Okeanın o tayında baş verənlərin tendensiyaya çevrilərək dünyanın dörd bir tərəfinə yayılacağı hər kəsdə narahatlıq doğurur. Peşəkar, nüfuzlu jurnalist təşkilatları bu prosesin qarşısını almaq üçün hərəkətə keçiblər. ABŞ media ictimaiyyətinə müraciət edərək, etiraz kampaniyalarına başlamağı təklif ediblər. Özləri də qlobal kampaniyalar hazırlığına başlayıblar.

İş bu məqamda ümumi ahəngi pozan, paradoksal görünən cərəyanlar baş qaldırır. Beynəlxalq diqqəti ABŞ-dan yayındırıb digər istiqamətlərə yönəltmək təşəbbüsü müşahidə olunur. Məsələn, Nyu-Yorkda mənzillənən Jurnalistləri Müdafiə Komitəsi (CPJ) “Azərbaycanda medianın vəziyyətindən narahatlığı ifadə edən” açıqlama yayıb. “Abzas media” işi üzrə aparılan məhkəmə prosesindən narahatlığını bildirib. Maraqlıdır, CPJ-ni ABŞ-da cərəyan edən proseslərə, peşəkar media üzərinə basqılara göz yumub Azərbaycan üzərinə yönəlməyə nə vadar edir? Bütün dünya ABŞ mediasının durumundan, CPJ isə Azərbaycan mediasının vəziyyətindən narahat olur. Hansı məntiqlə? Ağla gələn bir səbəb var: CPJ beynəlxalq diqqətin ABŞ üzərindən yayındırılmasına yönəlmiş prosesdə rol alır.

Bənzər durum bədnam “Sərhədsiz reportyorlar” təşkilatının (RSF) fəaliyyətində də görünür. “2025 Dünya mətbuat azadlığı indeksi”ni açıqlayan RSF “ABŞ-ni məzəmmət etməyə” çalışıb. Amma cəsarəti çatmayıb. “Superdövlətin” adını “Mətbuat azadlığı indeksi”ndə cəmi 2 pillə geri çəkə bilib – onu 55-ci yerdən 57-ci yerə endirib. Əvəzində öz nifrinini ölkəmizə yönəldib. Azərbaycanın adını Ermənistandan yüz pillə geri atıb.

ABŞ-ın donor institutlarından qrantlar götürən, maliyyə alan təşkilatlar – o cümlədən RSF və CPJ – uzun illər ərzində çərçivəli davranıblar. ABŞ və onun maraq çevrəsində olan dövlətləri qoruyublar, tənqidlərdən yayınıblar. ABŞ-dakı sabit durum, “super demokratiya” imitasiyası peyk təşkilatların bu tendensiyalı davranışlarını ört-basdır edib, diqqətdən yayındırıb. Amma bu gün vəziyyət dəyişib. Tramp komandasının açıq və riskli davranışları “demokratiya aşiqləri” olan yandaş təşkilatları – RSF və CPJ-ni daxil olmaqla – çaşqın duruma salıb. Onların əsl mahiyyətinin üzə çıxmasına yol açıb. ABŞ mediası acınacaqlı duruma düşüb. Nə CPJ, nə də RSF ağzını açıb bir kəlmə deyir.

# GLOBE Şəbəkəsinin Bakı iclası başa çatıb



**Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE Şəbəkəsi) 6-cı Plenar iclasının peşəkar seqmenti mayın 22-də Bakı şəhərində uğurlu nəticələrlə başa çatıb.**

Proqrama uyğun olaraq, mayın 22-də iclasda GLOBE Şəbəkəsinin Regional Ofislərinin təsis edilməsi prosedurları ilə bağlı BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) nümayəndələri tərəfindən görülmüş işlər barədə təqdimatlar verilib. Eyni zamanda, korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda panel müzakirəsi aparılıb. Paneldə Küveyt Dövləti və UNODC nümayəndələri çıxış edərək, beynəlxalq əməkdaşlığın əhəmiyyətini və şəbəkənin potensialını vurğulayıblar.

Sonrakı müzakirələrdə korrupsiya cinayətlərinin araşdırılmasında cinayət təqibindən kənar hallərin innovativ tətbiqi məsələsi gündəmə gəlib. Cənubi Afrika, Braziliya, Tailand və Vyetnam nümayəndələri bu mövzu ətrafında çıxış edərək, qeyri-cinayət həll yollarının tətbiqinin vacibliyini qeyd ediblər.

Bununla yanaşı, digər bir panel ictimaiyyətin məlumatlandırılması və korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin gücləndirilməsi mövzusuna həsr olunub. Rusiya, Çin (Honkonq Xüsusi Administrativ Bölgəsi), Haiti, Pakistan və Nepal (onlayn) nümayəndələri korrupsiyaya qarşı mübarizədə ictimaiyyətin inamını artırmağın və dəstəyi səfərbər etmənin yolları barədə geniş məlumatlar təqdim ediblər.

Aktivlərin bərpası və beynəlxalq təcrübələrin mübadiləsi mövzusu da müzakirə olunan mövzular arasında yer alıb. Braziliya, Madaqaskar, Papua Yeni Qvineya, Tailand və Uqanda nümayəndələri, həmçinin Eqmont Qrupunun Azərbaycandan olan təmsilçisi Fuad Əliyev bu sahədəki mühüm addımları və müsbət təcrübələri təqdim ediblər.

Tədbirin bağlanış mərasimində Azərbaycan Respublikasının Baş prokurorunun müavini Nazim Rəcəbov çıxış edərək GLOBE Şəbəkəsinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün çox vacib bir platforma olduğunu bildirib. GLOBE Şəbəkəsinin İdarəetmə Komitəsinin sədri Nasser Abaalkhail (Səudiyyə Ərəbistanı), sədr müavini Boni de Moraes Soares (Braziliya) və GLOBE Şəbəkəsinin koordinatoru Rozitsa Zaharieva da iştirakçılara təşəkkür edərək korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi üçün əməkdaşlığın davam etdiriləcəyini vurğulayıblar.

*XQ*

# Qərbi Azərbaycan İcması doğma yurda qayıtmaqda israrlıdır

**Qərbi Azərbaycan İcması Prezident İlham Əliyevin 21 may 2025-ci il tarixində Ankarada “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda keçirilmiş konfransın iştirakçılarına ünvanladığı müraciətə dair Ermənistan Xarici İşlər Nazirliyinin verdiyi bəyanatı qınayır. Bu barədə icma bəyanat yayıb.**



Bəyanatda deyilir: “Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqdan qaçması, öz ərazisində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əleyhinə iş aparan keçmiş qondarma rejimin tör-töküntülərinin fəaliyyətinə imkan verməsi bu ölkənin regionda davamlı sülhdə maraqlı olmasına dair verdiyi bəyanatlarla tam ziddiyyət təşkil edir. İcmamız bir daha vurğulayır ki, beynəlxalq hüquq çərçivəsində və sülh yolu ilə qayıdış hüququ uğrunda əzmlə mübarizəsini davam etdirəcək”.

*XQ*

# Baş prokuror Vyanada



**Mayın 22-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT-nin Cinayətin Qarşısının Alınması və Cinayət Mühakiməsi Komissiyasının sessiyası çərçivəsində Vyana şəhərində işgüzar səfərdə olub.**

Baş Prokurorluq və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (BMT-NCİ) arasında əldə olunmuş razılığa əsasən ölkəmizin COP29-da sədrliyi çərçivəsində əldə etdiyi nailiyyətlərin beynəlxalq ictimaiyyətə təqdim olunması məqsədilə Azərbaycanın Avstriyadakı Səfirliyinin dəstəyi ilə BMT-nin qərargahında “İqlim fəaliyyətinin təkmilləşdirilməsi üçün ətraf mühit cinayətlərinə qarşı cinayətin qarşısının alınmasının və ədalət mexanizmlərinin gücləndirilməsi” adlı xüsusi sessiya təşkil edilib.

Kamran Əliyev çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COP29-un yüksək səviyyədə və peşəkarlıqla təşkil olunduğunu vurğulayaraq, bu mötəbər tədbirin nəticələrinin qlobal miqyasda əhəmiyyət kəsb etdiyini qeyd edib. O, həmçinin COP29 çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun və BMTNCİ-nin birgə təşkilatçılığı, Birləşmiş Ərəb Əmirlikləri Daxili İşlər Nazirliyinin isə həmsədrliyi ilə keçirilmiş “İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması” mövzusunda yüksək səviyyəli tədbiri beynəlxalq əməkdaşlığın genişləndirilməsi baxımından mühüm platforma kimi dəyərləndirib.

COP29-un ölkəmizdə keçirilməsinə, habelə ətraf mühitin mühafizəsi və Azərbaycanın ekoloji cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirlər və əldə etdiyi uğurlara həsr olunmuş videoçarx nümayiş olunub.

Sessiyada Vyanada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, beynəlxalq təşkilatların təmsilçiləri, hüquqşünaslar, iqlim və ekoloji hüquq üzrə ekspertlər, eləcə də müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının nümayəndələri iştirak edib.

*XQ*

# İrəvan qazılığı bərpa edildi

*QMİ-nin Qazılar Şurası bu barədə qərar qəbul etdi*




**Mayın 22-də Bakıda Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının geniş tərkibdə iclası keçirilib.**

QMİ sədri, Şeyxülislam Allahşükür Paşazadə İrəvanın tarixi və Qərbi Azərbaycanla bağlı fikirlərini bölüşərək İrəvan qazılığının bərpa edilməsi zəruriliyini söyləyib. Sonra Qərbi Azərbaycanda qazılığın tarixi ilə bağlı videoçarx nümayiş etdirilib. İclasda İrəvan qazılığı ilə bağlı ayrıca Əsasnamə təqdim olunaraq səsə qoyulub və qəbul olunub. Bildirilib ki, İrəvan qazılığı ilkin mərhələdə Qafqaz Müsəlmanları İdarəsinin binasında yerləşəcək.

İclasda Allahşükür Paşazadə Azərbaycanda Qurban bayramının keçirilməsi ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsinin fətvasını səsləndirib. Diqqətə çatdırılıb ki, bayram bu il iyunun 6-na təsadüf edəcək.

Ardınca Şeyxülislam QMİ sədrinin yeni müavini vəzifəsinə Ceyhun Rüstəmovun təyin olunmasını təklif edib və təklif yekdilliklə qəbul olunub.

İclasda Milli Məclisin deputatları, dini və ictimai xadimlər, alimlər geniş çıxışlar ediblər.

Milli Məclisin deputatları Hikmət Babaoğlu, Fazil Mustafa, Anar İsgəndərov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov və başqaları İrəvanın tarixi, dini və mədəni irsi barədə ətraflı məlumat veriblər. Bildirilib ki, bu torpaqlar əsrlər boyu azərbaycanlıların məskunlaşdığı ərazilər olub və oradakı dini irsimiz də milli kimliyimizin ayrılmaz hissəsidir.

Din xadimləri və ictimaiyyət nümayəndələri də İrəvan qazılığı institutunun təsis olunmasını müsbət qarşılayaraq, bu təşəbbüsün tarixi ədalətin bərpasına, milli-mənəvi irsin dirçəlməsinə xidmət etdiyini vurğulayıblar.

Sonda Allahdan Vətənimizin bütövlüyü uğrunda həyatlarını qurban vermiş şəhidlərimizin ruhuna rəhmət dilənib, qazılıq fəaliyyətinin uğurlu və xeyirli olması üçün dualar edilib, xalqımıza birlik, əmin-amanlıq və dini-mənəvi dirçəliş arzulanıb.

*XQ*

# YAP heyəti Şimali Kiprdə



**Mayın 21-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Yeni Azərbaycan Partiyası, Türkiyənin Ədalət və İnkişaf Partiyası və ŞKTC-nin Ulusal Birlik Partiyasını təmsil edən gənclərdən ibarət “Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi” layihəsinin iştirakçılarını qəbul edib.**

Prezident Ersin Tatar xalqlarımız arasında münasibətlərin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını bildirib. O, üç ölkənin gənclər təşkilatları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayaraq “Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi” layihəsinin müsbət nəticələr verəcəyinə və bütün tərəflər üçün faydalı olacağına əminliyini ifadə edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov yüksək səviyyədə təşkil olunan səfərin hər üç ölkənin iqtidar partiyalarının gəncləri arasında əlaqələrin inkişafına əlverişli zəmin yaratdığını qeyd edib.

*XQ*

**Bugün 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyada əhatə olunan və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malik Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr tərəfindən milli maraqlar nəzərə alınaraq qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirilir. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlıq getdikcə genişləndirilir.**

# Türk dövlətləri vahid gücə çevrilir



Prezident İlham Əliyev TDT-nin hər zaman möhkəmlənməyə zəruri ehtiyacı olduğunu çıxışlarının birində xatırladaraq, bu istiqamətdə Azərbaycan tərəfindən bir çox layihələrin həyata keçirildiyini vurğulayıb, hazırda da bu istiqamətdə daha bütöv, daha birləşmiş şəkildə gələcəyə doğru addımlar atıldığını bildirib. Ölkə rəhbəri bu əminliyinin təsadüfi olmadığını qeyd edərək deyib: “Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir”.

Prezident İlham Əliyev cari il mayın 20-də Macarıstana işgüzar səfəri zamanı mətbuata bəyanatında bu barədə ətraflı bəhs edib. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan Macarıstanla birgə “yaşıl” enerji istehsalı ilə bağlı layihələr üzərində fəal iş aparır. Respublikamızın çox böyük miqyaslı “yaşıl” enerji gündəliyi var. Azərbaycanda növbəti 5 il ərzində 6 min meqavat gücündə “yaşıl” enerji istehsal ediləcəyi də nəzərdə tutulur. Qarşıdakı 5 il ərzində 6 min meqavatlıq “yaşıl” enerji potensialının gerçəkləşdirilməsinin qarşıya mühüm vəzifə kimi qoyulması isə reallaşdırılması nəzərdə tutulan layihələrə əsaslanır. Beləliklə, təkcə bu təşəbbüslərin gerçəkləşdirilməsi hesabına ölkəmizin, təqribən, 3- 4 milyard kubmetr qaza qənaət edəcəyi proqnozlaşdırılır. Bundan isə Türkiyə və Avropa ölkələrinin faydalanacağı bildirilir.

Azərbaycan lideri mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə TDT Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında da respublikamızın, ümumilikdə, adıçəkilən qurumun üzv ölkələri ilə iqtisadi münasibətləri haqqında geniş bəhs edib. Ölkə rəhbəri Azərbaycanın Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığının gücləndiyini bildirib. Qeyd edib ki, son illər ərzində respublikamızda nəqliyyat infrastrukturuna –avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulub. Nəticədə, açıq dənizlərə çıxışı olmayan Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib.

Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradılıb, müştərək müəssisələr qurulub. Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb.

Azərbaycan Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm verir. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində iş davam etdirilir.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatacağı gözlənilir.

Azərbaycan son illərdə nəqliyyat sahəsində həyata keçirdiyi genişmiqyaslı islahatlar, infrastruktur layihələri və beynəlxalq əməkdaşlıq formatları ilə yalnız Cənubi Qafqazın deyil, bütövlükdə, Türk dünyasının nəqliyyat və logistika xəritəsində strateji mövqeyə sahib olub. Nəticədə, ölkə ərazisindən keçən yük axınları nəinki respublika iqtisadiyyatına gəlir gətirib, həm də Türk dövlətləri arasında əməkdaşlığın möhkəmlənməsinə xidmət edib.

Coğrafi baxımdan dənizə birbaşa çıxışı olmayan, quru və dəniz yollarının kəsişdiyi bir məkanda yerləşən Azərbaycan son illərdə avtomobil yolları, dəmir yolu xətləri, hava limanları, gəmi donanması və liman infrastrukturu sahəsində həyata keçirilən böyük layihələr sayəsində regional və qlobal tranzit marşrutlarında vacib halqaya çevrilib.

Bu inkişafa rəqəmlər də şahidlik edir: 2024-cü ildə Türkiyə və Mərkəzi Asiya ölkələrinin Azərbaycan üzərindən keçən yük həcmi 11 milyon ton təşkil edib. Bu, təkcə coğrafi mövqedən yox, həm də yaradılan şəraitdən, logistik xidmətlərin səmərəliliyindən irəli gəlib.

Onu da deyək ki, Çin və Avropa arasında strateji əhəmiyyət daşıyan Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) Azərbaycanın tranzit strategiyasının əsasını təşkil edir. Bu marşrutun əsas qolu sayılan Bakı-Tbilisi-Qars dəmir yolu son illərdə daşıma qabiliyyətinə görə xüsusi diqqət çəkir. Hazırda Azərbaycanın maliyyə dəstəyi ilə bu xəttin illik yükaşırma potensialı 5 milyon tondur. Bu isə yalnız yük daşımalarının deyil, həm də Azərbaycan – Türkiyə və Azərbaycan – Mərkəzi Asiya əməkdaşlığının konkret infrastruktur üzərində formalaşdığını göstərir.

Nəqliyyat sektorunda innovasiyalara xüsusi önəm verən Azərbaycan Orta Dəhlizin rəqəmsallaşdırılması istiqamətində təşəbbüslərlə çıxış edir. Hazırda Xəzər dənizi limanları arasında ticarətin və logistikanın sürətləndirilməsi məqsədilə vahid rəqəmsal platforma üzərində müəyyən layihələr gerçəkləşdirilir. Bu platforma vasitəsilə yükün daşınması zamanı gömrük, sənədləşmə, logistika və liman xidmətləri bir sistem üzərindən vahid şəkildə idarə ediləcək. Bu, eyni zamanda, vaxt və resurs itkisini minimuma endirəcək, səmərəliliyi isə maksimum səviyyəyə yüksəldəcək.

Azərbaycanın Xəzər dənizi üzərində malik olduğu donanma ölkənin regionda ticarət nəqliyyatına olan təsir imkanlarını genişləndirir. Hazırda respublikamızda 50-dən çox ticarət gəmisindən ibarət donanma fəaliyyət göstərir. Paralel olaraq Bakı Gəmiqayırma Zavodunda da 10 yeni gəmi inşa edilir.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanı isə bu sahədə mühüm rol oynayır. Hazırda 15 milyon tonluq yükaşırma imkanına malik limanın 25 milyon ton səviyyəsinə çatdırılması planlaşdırılır. Bu liman region ölkələri ilə, o cümlədən Qazaxıstan və Türkmənistanla ticarətin genişlənməsinə zəmin yaradır.

Azərbaycanın hava nəqliyyatı da güclü inkişaf mərhələsindədir. Hazırda ölkədə 8 beynəlxalq hava limanı fəaliyyət göstərir, Laçın aeroportu isə istifadəyə hazırlanır. Bu limanlardan 3-ü işğaldan azad olunmuş ərazilərdə yerləşir və Qarabağın iqtisadi reinteqrasiyası baxımından strateji rol oynayır. Bundan başqa, 1,5 milyon ton yükləmə potensialına malik yeni karqo terminalının inşası beynəlxalq yük daşımalarında Azərbaycanın mövqeyinin daha da gücləndirəcəyi gözlənilir.

Azərbaycan nəqliyyat sektoru vasitəsilə yalnız tranzit ölkəsi deyil, həm də region dövlətləri ilə əməkdaşlıq platforması qurur. Qonşu ölkələrlə birgə layihələr həyata keçirilir, müştərək müəssisələr yaradılır. Bu da nəqliyyat infrastrukturunun regionlararası koordinasiyasını və xidmət keyfiyyətini artırır.

Azərbaycanın nəqliyyat sahəsində həyata keçirdiyi siyasət təkcə iqtisadi deyil, həm də geosiyasi nəticələr doğurur. Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycanın daşıyıcı rol alması, onu Türk dünyasını birləşdirən fiziki və rəqəmsal körpüyə çevirir.

İnfrastrukturun genişlənməsi, tranzit imkanlarının artması, rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq tərəfdaşlıq formatları Azərbaycanın regionda və bütövlükdə, Avrasiya məkanında nəqliyyat liderliyini gücləndirir. Bu isə həm ölkə iqtisadiyyatının diversifikasiyası, həm də Türk dünyasının daha sıx inteqrasiyası baxımından strateji əhəmiyyət daşıyır.

# Çindən ölkəmizə 600 blok-qatar gələcək

**“Azərbaycan Dəmir Yolları”ndan (ADY) verilən məlumata görə, qurumun sədr müavini Arif Ağayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının Sian şəhərində keçirilən “Çin–Avropa (Sian) Dəmiryol Ekspresi”nin Qlobal Tərəfdaşlarının Forumunda iştirak edib.**

Forumda “Kəmər və Yol Təşəbbüsü”nün əsas hissəsi olan və Çinlə Avropa ölkələri arasında yük daşımalarını inkişaf etdirmək məqsədi daşıyan “China–Europe Express” dəhlizinin üstünlüklərindən tam istifadə etmək, bu istiqamətdə yük daşımalarının səmərəliyini diqqətə çatdırmaq, beynəlxalq ticarət üçün sərfəli və keyfiyyətli quru yol əlaqəsini qurmaq, müasir beynəlxalq logistika sisteminin tikintisini sürətləndirmək kimi məsələlərə toxunulub.

Forumda çıxış edən ADY sədrinin müavini Arif Ağayev bildirib ki, Azərbaycan Çinə təkcə ticarət tərəfdaşı deyil, həm də etibarlı strateji müttəfiq kimi baxır. Bu strateji tərəfdaşlıq münasibətləri nəqliyyat və logistika sahəsində əməkdaşlıq üçün xüsusi əhəmiyyət kəsb edir. İki ölkə arasında infrastruktur və multimodal layihələrin birgə həyata keçirilməsi etibarlı, dayanıqlı və rəqabətədavamlı yükdaşıma marşrutlarını gerçəkləşdirməklə Şərq və Qərb arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Arif Ağayev vurğulayıb ki, 2024-cü ildə ölkələrimiz arasında dəmir yolu nəqliyyatı ilə daşınan yüklərin həcmi 47 faiz artaraq 612 min ton təşkil edib. Çindən Azərbaycana göndərilən konteyner blok-qatarlarının sayı da sürətlə artıb. 2024-cü ildə, ümumilikdə, 287 blok-qatar, 2025-ci ilin ilk dörd ayında isə 73-ü tranzit, 92-si idxal rejimində olmaqla 165 blok-qatar artıq qəbul edilib. İlin sonunadək 600-dən çox blok-qatarın qəbulu planlaşdırılıb. Bundan əlavə, 2024-cü il noyabrın 24-də Azərbaycandan Çinə ilk




“Bakı–Sian” ixrac blok-qatarı yola salınıb. Bu günə kimi ümumi həcmi 10 min tona yaxın olan 6 blok-qatar göndərilib. Bu rəqəmlər Orta Dəhlizin strateji əhəmiyyətini və potensialını bir daha təsdiqləyib.

ADY sədrinin müavini qeyd edib ki, Çinin strateji əhəmiyyətli nəqliyyat qovşaqlarından biri olan Sian şəhərindən başlayan ekspres Avropa ölkələrinə, o cümlədən Almaniya, Polşa, Macarıstan, Çexiya və Litvaya da müntəzəm yük daşımalarına təkan verəcək.

Arif Ağayev əlavə edib ki, “China–Europe Express” Asiya və Avropa arasında logistik əməliyyatların sürətləndirilməsi, nəqliyyat marşrutlarının şaxələndirilməsinin təşviqi və iştirakçı ölkələrin ixrac-idxal potensialının dəstəklənməsi kimi üstünlükləri təmin edəcək. Forumun sonunda “Çin–Avropa Dəmiryol Ekspresi” konsolidasiya mərkəzinin tikintisi üzrə əməkdaşlıq təşəbbüsü” sənədi imzalanıb. Sənəd infrastruktur üzrə əməkdaşlığın gücləndirilməsi, nəqliyyatın təşkilinin optimallaşdırılması və xidmətin təkmilləşdirilməsi, “ağıllı” logistika mərkəzinin yaradılması, dəmiryol marşrutları üzrə nəqliyyat xərclərinin səmərələşdirilməsi məsələlərini əhatə edib.

# OPEC Fondu ilə əməkdaşlıq genişlənir



**İqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankı Qrupunun illik toplantısında iştirak etmək məqsədilə Əlcəzair Xalq Demokratik Respublikasında səfərdədir. İllik toplantı çərçivəsində Azərbaycanın iqtisadiyyat naziri ilə Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Beynəlxalq İnkişaf Fondunun prezidenti Əbdülhəmid Əlxəlifə arasında görüş keçirilib.**

Görüşdə OPEC Fondu ilə Azərbaycan arasında mövcud əlaqələr yüksək qiymətləndirilib və bu əməkdaşlığın daha da gücləndirilməsi üçün birgə imkanların araşdırılmasının önəmi vurğulanıb. Regional və beynəlxalq iqtisadi inkişaf məqsədləri çərçivəsində tərəfdaşlığın əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı tərəflər dayanıqlı inkişaf, resursların səmərəli istifadəsi və gündəlikdə olan digər məsələləri müzakirə edib, infrastruktur layihələri çərçivəsində birgə fəaliyyət imkanlarını dəyərləndiriblər.

# İİB-nin Azərbaycana dəstəyi davam edir

**İslam İnkişaf Bankı (IsDB) dayanıqlı inkişaf gündəminin gerçəkləşdirilməsində Azərbaycana dəstək göstərməyə davam edəcək. Bu fikri IsDB Qrupunun baş iqtisadçısı Arif Süleyman bankın Əlcəzairdə keçirilən illik toplantısı zamanı səsləndirib. O deyib ki, bank öz fəaliyyətini dayanıqlı inkişaf gündəminin gerçəkləşdirilməsində üzv ölkələrlə əməkdaşlıqda onların liderliyinə əsaslanaraq qurur. “Ölkə öz inkişaf gündəmini özü müəyyənləşdirir, biz isə ona dəstək göstəririk. Keçən il biz Azərbaycanla əməkdaşlıq üzrə çərçivə sazişi imzaladıq”, – deyə o əlavə edib.**



Azərbaycanla əməkdaşlıq çərçivəsində ümumi dəyəri, təxminən, 1,3 milyard dollar olan 77 layihə həyata keçirildiyini xatırladan bank rəsmisinin sözlərinə görə, həmin investisiyaların əsas hissəsi enerji sektoruna yönəldilib. A.Süleyman bununla yanaşı, bankın ölkəmizdə kənd təsərrüfatı, maliyyə, eləcə də digər əlaqəli sahələrdə də layihələrin maliyyələşdirdiyini vurğulayıb. Sonda o, İslam İnkişaf Bankının Azərbaycanı, eləcə də digər üzv ölkələrini dəstəkləməyə davam edəcəyini də diqqətə çatdırıb.

# İqtisadçı alimlər Xızı-Abşeron KES-də

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı və qurumun əməkdaşlarının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin dəvəti və təşkilatçılığı ilə növbəti səfəri Xızı-Abşeron Külək Elektrik Stansiyasına olub.**




“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın 5.2-ci məqsədinin icrasının (“Yaşıl enerji məkanı”) monitorinqi çərçivəsində reallaşan səfərdə stansiyanın fəaliyyəti barədə ətraflı məlumat verilib. Eyni zamanda, “ACWA Power” şirkəti tərəfindən həyata keçirilən layihənin təməlqoyma mərasiminin Prezident İlham Əliyev və Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Əbdül Əziz bin Salman Əl-Səudinin iştirakı ilə 2022-ci ildə keçirildiyi bildirilib.

“ACWA Power” şirkətinin ölkəmizdəki layihə direktoru İbrahim Adar İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının və Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin iştirak etdiyi görüşdə görülən işlər barədə məlumat verib. İbrahim Adar tikintisi davam edən layihənin Xızı rayonunun Sitalçay və Abşeron rayonunun Pirəkəşkül ərazilərini əhatə etdiyini bildirib.

Xatırladaq ki, ilkin hesablamalara əsasən, 240 MVt gücündə stansiya ildə 1 milyard kilovat-saat elektrik enerjisi istehsal edəcək, bu isə 220 milyon kubmetr təbii qazın qənaətinə, 400 min tondan çox karbon emissiyasının qarşısının alınmasına və 300 min evin elektrik enerjisi ilə təminatına imkan verəcək. Layihənin ümumi dəyəri, təxminən, 300 milyon ABŞ dollarıdır və tam şəkildə xarici investisiya hesabına maliyyələşdirilir.

Görüşün ardınca İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin və Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin əməkdaşları külək elektrik enerjisi turbinləri quraşdırılan və tikintisi davam edən stansiyanın ərazilərində olublar. “ACWA Power” şirkətinin ölkəmizdəki layihə direktoru İbrahim Adar icraçı direktor Vüsal Qasımlıya xatirə hədiyyəsi təqdim edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nümayəndələrinin bu səfəri ölkəmizin “yaşıl enerji məkanı” məqsədinə nail olması istiqamətində həyata keçirilən layihələrin icra vəziyyətinin yerində öyrənilməsi və monitorinqi baxımından mühüm əhəmiyyət kəsb edir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

**23 May Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı günüdür**

# Təbiət ona xəyanəti bağışlamır

**Prezident İlham Əliyevin 2007-ci il 16 may tarixli sərəncamı ilə hər il mayın 23-ü ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı kimi qeyd olunur. Qeyd edək ki, adıçəkilən nazirlik Azərbaycan ərazisində, həmçinin Xəzər dənizinin Azərbaycana aid hissəsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması istiqamətində dövlət siyasətini həyata keçirir. İndiki və gələcək nəsillərin sağlamlığının təmin olunması, iqtisadi potensialın qorunması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi nazirliyin qarşısında duran başlıca məsələlərdir.**



Ölkəmizdə bütün sahələrdə olduğu kimi, ekoloji problemlərin həlli, ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın bərpa edilməsi istiqamətində mühüm işlər görülüb. Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa, meşələrin bərpa edilməsi və artırılmasına dair milli proqramlar uğurla yerinə yetirilib.

Hazırda ətraf mühitin sağlamlaşdırılması və ekoloji tarazlığın qorunması sahəsində ardıcıl quruculuq işləri davam etdirilir. Beynəlxalq ekoloji proqramların həyata keçirilməsi, təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, milli parkların və ekoloji şəbəkənin yaradılması istiqamətində görülən işlər də bu qəbildəndir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün öz bəhrəsini verir. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dahi şəxsiyyət Heydər Əliyev ətraf mühitin mühafizəsinə və insanların sağlamlığına təminat yaradan mütərəqqi texnologiyaya malik yeni müəssisələrin tikilməsinə, o cümlədən köhnə texnologiyaların yenisi ilə əvəzlənməsinə, yaşıllıqların və parkların salınmasına xüsusi diqqət yetirib. Bunun məntiqi nəticəsi olaraq ölkəmizdə ekoloji şəraitin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi sahəsində uğurlu nəticələr əldə olunub. Məhz Ulu öndərin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra paytaxt Bakının yaşıllaşdırılmasına, ekoloji tarazlığın bərpasına start verilib.

Bu gün Azərbaycanda ekoloji problemlər dövlət səviyyəsində həll olunur. Ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiq etdiyi proqramlarda ekoloji mühitin yaxşılaşdırılması məqsədilə nəzərdə tutulan hədəflərin reallaşması üçün zəruri vəzifələr müəyyənləşdirilib, biomüxtəlifliyin mühafizəsi, meşəçiliyin inkişafı, yaşıllıqların artırılması və su ehtiyatlarının davamlı idarə edilməsi sahəsində müsbət nəticələr əldə olunub.

Ekoloqların peşə bayramı gününün təsis edilməsi, 2010-cu ilin ölkəmizdə "Ekologiya ili", 2024-cü ilin isə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması, dövlətimizin başçısı tərəfindən bu sahəyə aid sərəncamların verilməsi, yeni milli parkların yaradılması, ətraf mühitin qorunması, nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, ekoturizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər sübut edir ki, ekoloji tarazlığın qorunması dövlətimizin siyasətinin prioritetləri sırasındadır.

Azərbaycanda intensiv olaraq meşə-bərpa tədbirləri reallaşdırılır, yeni meşə massivlərinin yaradılması üçün ardıcıl ağacəkmə aksiyaları həyata keçirilir, ağac əkilməsinin, yaşıllıqların genişləndirilməsinin təşviqatı aparılır.

İşğaldan azad olunmuş ərazilərdə meşə fondu torpaqlarının ümumi sahəsi 260 min hektar olub. İşğala qədərki dövrdə həmin ərazilərin 228-230 min hektara yaxını meşə örtüklü ərazilər idi. Təəssüf ki, ən çox zərər çəkən sahələrimiz məhz meşələrimiz olub. Bu meşələr məqsədli şəkildə yandırılıb, istismar edilib. 54 min hektardan çox ərazi tamamilə məhv olunub. Əlbəttə ki, seyrəldilmiş ərazilərimiz də var. Bunlar da min hektarlarla ərazini əhatə edir. Bir hektara min ağac sayı ilə götürsək bu, 54 milyon ağacın məhvi deməkdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əsas prioritetlərindən biri də azad edilmiş ərazilərdə meşə-bərpa işlərinin aparılması və həmin istiqamətdə həyata keçirilən layihələrdir.

Ölkəmizdə həyata keçirilən reintroduksiya layihələri azad edilmiş ərazilərdən də yan keçməyib. Nadir və nəsli kəsilməkdə olan növlərin reintroduksiyası layihəsi çərçivəsində, həmçinin işğaldan azad edilmiş ərazilərdə də bioloji müxtəlifliyin bərpası istiqamətində gələcəkdə bəzi heyvan növlərinin reintroduksiyasının həyata keçirilməsi nəzərdə tutulub. Həmçinin azad edilmiş ərazilərdə su bioresurslarının ehtiyatlarının artırılması məqsədilə Bəsitçay, Həkəri çaylarına, Xaçınçay və Suqovuşan su anbarlarına və Qaragölə indiyə kimi minlərlə çəki, qızıl xallı forel balıqlarının körpələri buraxılıb.

İşğaldan azad edilmiş ərazilərdə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 43 min hektar təşkil edir. Həmin təbiət əraziləri Bəsitçay və Qaragöl Dövlət Təbiət qoruqları, Qubadlı, Arazboyu, Laçın, Daşaltı Dövlət Təbiət yasaqlıqlarıdır. Hazırda həmin xüsusi mühafizə olunan təbiət ərazilərinin bərpası istiqamətində müəyyən işlər görülür. Ölkə başçısının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı müvafiq sərəncamı var. Ötən dövr ərzində qoruğun sərhədlərinin dəqiqləşdirilməsi işləri başa çatıb. Bununla yanaşı, ərazidə yerləşən təbiət obyektlərinin inventarizasiyası işlərinə başlanılıb. Həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri mütəmadi olaraq ərazidə fauna və floranın müşahidəsi üçün birgə monitorinqlər həyata keçirirlər.

Bu gün peşə bayramlarını qeyd edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işçilərinin növbəti illərdə də uğurlu fəaliyyətini davam etdirəcəyinə və düşmən tapdağından azad edilmiş torpaqları yenidən dilbər guşələrə çevirəcəyinə inanırıq.





## Dəmir yollarında vahid rəqəmsal məkan

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON Holding) tərkibində fəaliyyət göstərən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti rəqəmsal transformasiya strategiyası çərçivəsində növbəti yeniliyə imza atıb. Qurumun elektron xidmətlər portalı bugünlərdə ölkənin vahid rəqəmsal identifikasiya sistemi olan "digital.login" ilə uğurla inteqrasiya edilib.**

"Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata əsasən, bu yenilik istifadəçilərə portala daha sürətli, təhlükəsiz və rahat şəkildə daxil olmaq imkanı yaradır. İstifadəçilər portalda xidmətlərə daxil olmaq üçün artıq mövcud olan identifikasiya vasitələrindən – SİMA İmza, Asan İmza, SİMA Token (Elektron İmza), İdentifikasiya nömrəsi və BSXM Elektron İmzadan istifadə edə bilirlər.

Ümumilikdə isə, inteqrasiya prosesi bir sıra üstünlükləri ilə diqqət çəkir. Hər şeydən əvvəl, portala sadə və sürətli giriş nəticəsində təkrar qeydiyyat zərurəti aradan qalxır. Digər tərəfdən, dövlət tərəfindən təsdiqlənmiş identifikasiya vasitələrindən istifadə təhlükəsizliyin artırılmasına imkan yaradır. Eyni zamanda, müraciət və sorğuların təqdimat prosesi sürətlənir ki, bunun da nəticəsində istifadəçilər vaxta qənaət etmək imkanı qazanırlar. Dövlət sistemləri ilə uyğunluq – "MyGov" portalı və digər dövlət platformaları ilə inteqrasiya imkanı da yeni tətbiqin əsas üstünlüklərindəndir.

Xatırladaq ki, Azərbaycanda rəqəmsal hökumət sisteminin inkişafına mühüm töhfə verəcək yeni layihə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib. Eyni zamanda, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəqəmsal transformasiya strategiyası çərçivəsində reallaşdırdığı layihə "bir pəncərə" prinsipi əsasında təqdim edilən onlayn xidmətlərin daha da genişləndirilməsinə imkan yaradır.

Bununla yanaşı, ADY-nin bu yaxınlarda istifadəyə verdiyi elektron xidmətlər portalı (https://portal.ady.az/) əməliyyat səmərəliliyinin artırılması, vətəndaşlara və biznes müştərilərinə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır və dəmiryol xidmətlərinin daha rahat, müasir, şəffaf və innovativ şəkildə təqdim olunmasını təmin edir. Portal vətəndaşların müraciət və digər xidmətlərə onlayn formada çıxışını təmin edən əsas platforma kimi inkişafını davam etdirəcək.

# Özəl sektor yeni yüksəlişə qanadlanıb

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, 2025-cü ilin I rübündə işğaldan azad edilən rayonlarda 543 yeni iş yeri yaradılıb. Dövlət Statistika Komitəsinin hesablamalarına görə, bu göstəricinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 86 faiz çoxalıb. Belə ki, 2024-cü ilin I rübündə düşməndən təmizlənən yaşayış sahələrində 292 yeni iş yerləri yaradılıb. Qeyd edək ki, ötən il ərzində ən çox yeni iş yeri Xankəndi və Kəlbəcərdə açılıb. Belə ki, hesabat dövründə Xankəndidə 283, Kəlbəcərdə isə 70 yeni iş yeri yaradılıb. Bundan başqa, hesabat dövründə Qarabağda 56 yeni müəssisə və təşkilat, 739 yeni fərdi sahibkarlıq subyekti dövlət qeydiyyatına alınıb.

Bütün bu uğurlu göstəricilər respublikamızda özəl bölmənin inkişafının diqqətdə saxlanılması, sahibkarlığın hüquqi bazasının təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatların həyata keçirilməsi nəticəsində əldə edilib. "Lisenziyalaşdırma və icazələr haqqında" qanunun tətbiqi, "Bir pəncərə" və "ASAN xidmət" kimi innovativ mexanizmlər sayəsində biznesin qeydiyyatı və fəaliyyətə başlaması üçün inzibati baryerlər minimuma endirilib. Əlavə olaraq, elektron hökumət portalları vasitəsilə sahibkarlıq subyektlərinin dövlət orqanları ilə münasibətləri daha şəffaf və çevik xarakter alıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Sahibkarlığın İnkişafı Fondu və digər qurumlar vasitəsilə hazırda iş adamlarına maliyyə dəstəyi, məsləhət xidməti və təlim proqramları təqdim olunur. Bu mexanizmlər hesabına regional biznes təşəbbüslərinin artmasına və kənd yerlərində işsizliklə mübarizəyə mühüm töhfələr verilir. Ölkədə infrastruktur və rəqəmsal imkanların genişləndirilməsi də özəl sektorun inkişafını stimullaşdırır. Belə ki, son illərdə regionlarda sənaye zonalarının, aqroparkların və texnoparkların yaradılması, eyni zamanda, genişzolaqlı internetə çıxış imkanlarının artırılması sahibkarların istehsal və xidmət sahələrinə daha asan inteqrasiyasını gerçəkləşdirir. Bu, xüsusilə rəqəmsal sahibkarlıq (e-commerce, texnoloji startaplar və s.) üçün yeni imkanlar açır. Təbii ki, bu zaman maarifləndirmə və insan kapitalına sərmayə qoyuluşu kimi amillər də unudulmur. Bu baxımdan sahibkarlıq bacarıqlarının artırılması istiqamətində keçirilən təlimlər, təcrübə proqramları və innovasiya müsabiqələri gəncləri biznesə cəlb edir. Universitetlərdə startap inkubatorları, peşə təhsili proqramları və biznes yönümlü kurslar sahibkarlıq ekosisteminin dayanıqlılığını gücləndirir.



Onu da qeyd edək ki, Azərbaycanda əlverişli investisiya mühiti və əldə edilən sabit makroiqtisadi göstəricilər ölkəni regionun biznes mərkəzlərindən birinə çevirir. Xarici investorlarla yerli sahibkarlar arasında yaradılan platformalar (forumlar, biznes missiyalar, sərgilər və s.) bazara çıxış imkanlarını artırır və beynəlxalq təcrübənin lokallaşdırılmasına şərait yaradır.

**Bu məqamda mövcud çağırışları və gələcək istiqamətləri də xatırlatmaq istərdik:**

***– vergi və gömrük sisteminin daha da optimallaşdırılması, xüsusən KOB-lar üçün vergi güzəştlərinin və stimullaşdırıcı tədbirlərin davam etdirilməsi;***

***– ədalətli rəqabət mühitinin yaradılması və inhisarçılığın qarşısının alınması;***

***– qadın sahibkarlığının təşviqi, xüsusilə regionlarda qadınların iqtisadi fəallığının artırılması;***

***– "yaşıl" iqtisadiyyat və dövriyyə iqtisadiyyatı prinsiplərinə əsaslanan biznes modellərinin dəstəklənməsi, bu sahədə ekosistem təşəbbüslərinin stimullaşdırılması;***

***– və nəhayət, süni intellekt və innovasiya əsaslı sahibkarlığın inkişafı, rəqəmsal transformasiya strategiyalarının biznes proseslərinə inteqrasiyası.***

Sahibkarlığın inkişafını şərtləndirən əsas amillərdən biri hüquqi və inzibati bazanın müasirləşdirilməsidir. "Bir pəncərə" qeydiyyat sistemi, "ASAN xidmət", eləcə də lisenziyalaşdırma prosedurlarının sadələşdirilməsi sahibkarların qarşılaşdığı inzibati yükü əhəmiyyətli dərəcədə azaldıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Sahibkarlığın İnkişafı Fondu və digər qurumlar vasitəsilə təqdim olunan maliyyə, təlim və konsultasiya dəstəyi regionlarda biznes təşəbbüslərinin formalaşmasına zəmin yaradır. Aqroparklar, sənaye zonaları və texnoparkların yaradılması infrastruktur baxımından sahibkarlığa güclü təkan verib.

Əlavə olaraq, rəqəmsallaşma prosesi və elektron xidmətlərin geniş tətbiqi nəticəsində sahibkarlar dövlət orqanları ilə münasibətlərində daha çevik və şəffaf yanaşma ilə qarşılaşırlar. Elektron vergi sistemləri, onlayn qeydiyyat və hesabatlılıq mexanizmləri bu sahədə şəffaflığı və səmərəliliyi artırır.

Bütün müsbət tendensiyalara baxmayaraq, bir sıra sahələrdə əlavə tədbirlərin görülməsi zəruridir. Bu sırada vergi və gömrük güzəştlərinin genişləndirilməsi, inhisarçılığa qarşı mübarizə və ədalətli rəqabət mühitinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

Qadın sahibkarlığının təşviqi, regionlarda gənclərin biznesə cəlb edilməsi, "yaşıl" iqtisadiyyatın təşviqi və rəqəmsal texnologiyalarla inteqrasiya olunmuş biznes modellərinin dəstəklənməsi gələcək inkişaf üçün mühüm istiqamətlərdir.

Beləliklə, özəl sektorun ÜDM-də və məşğulluqda artan payı Azərbaycanda aparılan islahatların real nəticəsidir. Bu inkişafın davamlılığını təmin etmək üçün sahibkarların təşəbbüslərinin dəstəklənməsi, innovasiya və rəqabət qabiliyyətinin artırılması strateji əhəmiyyət kəsb edir. Regionların iqtisadi potensialının tam reallaşdırılması üçün isə yerli imkanların düzgün qiymətləndirilməsi və biznes təşəbbüslərinə hədəfli dəstək zəruridir.

Bütün bunlar isə Azərbaycanın iqtisadi inkişafında özəl sektorun yüksəlişinin dayanıqlı və çevik bir iqtisadi sistemin formalaşmaqda olduğunu nümayiş etdirir. Dövlət və sahibkarlar arasında qurulan əməkdaşlıq modeli, hüquqi və institusional dəstək, eləcə də müasir texnologiyaların tətbiqi ölkənin sahibkarlıq mühitini Cənubi Qafqaz və daha geniş regionda rəqabətədavamlı edən əsas amillərdir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qarabağ müharibəsinin ölkəmizə vurduğu zərərin mötəbər hesabatı

## *Hərbi təcavüz və işğal Azərbaycana 250 milyard manatlıq itki gətirib*

**Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun Elmi Şurasının növbəti geniş iclasında institutun direktoru, professor Nazim Müzəfferli "Hərbi təcavüz və işğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsi metodologiyası" mövzusunda təqdimatla çıxış etdi. İclasda İqtisadiyyat İnstitutunun əməkdaşları, eyni zamanda, respublikanın tanınmış iqtisadçıları "Zoom" platforması vasitəsilə iştirak edirdilər.**

Geniş məruzə ilə çıxış edən hesabat müəllifi Nazim Müzəfferli bildirdi ki, hərbi təcavüzün vurduğu ziyan barədə iddia qaldırmaq hüququ beynəlxalq təcrübədə işğala məruz qalan ölkəyə məxsusdur. Professor hərbi təcavüz və işğal nəticəsində vurulmuş ziyanla bağlı dünya təcrübəsi barədə məlumat verərək qeyd etdi ki, indiyədək qısamüddətli toqquşma və müharibələrlə bağlı belə nümunələr olsa da, uzunmüddətli münaqişənin nəticələrinin qiymətləndirilməsi halı olmayıb.



Buna görə də dövlət başçısı İlham Əliyevin sərəncamı ilə yaradılmış, maliyyə nazirinin rəhbərlik etdiyi Dövlət Komissiyası Ermənistanın Azərbaycana çoxillik hərbi təcavüzünün, uzunmüddətli işğalın vurduğu zərəri müəyyən etmək üçün nadir bir metodologiya yaradıb. Vəziyyət belədir ki, bu sahədə təklif edilən metodologiya kompleks və multidissiplinar yanaşma tələb etdiyindən ölkəmiz işğal və hərbi təcavüz nəticəsində vurulan zərərin qiymətləndirilməsini yalnız statistik və iqtisadi göstəricilərlə məhdudlaşdıra bilməzdi.

ETN İqtisadiyyat İnstitutu alimlərinin və Baş Prokurorluğun hüquqşünaslarının iştirakı ilə hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş zərər dövlət və şəxsi əmlak, texnika və nəqliyyat, insan itkisi və məcburi köçkünlərin sosial müdafiəsi, mədəni irs və tarixi abidələr, ekologiya və təbii sərvətlər, iqtisadiyyata dəymiş dolayı itkilər kimi bir sıra parametrlər üzrə əhatəli, sistemli araşdırma aparılıb.

Natiq qeyd etdi ki, 2024-cü ili əhatə edən gərgin iş zamanı ermənilərin hərbi təcavüz və işğalı nəticəsində vurulmuş zərərin qiymətləndirilməsinin Azərbaycana məxsus metodologiyası işlənib hazırlanıb. Bu, əsaslı, ciddi, keçərli bir hesabatın hazırlanmasına imkan verib. Nəticədə, Ermənistanın Azərbaycana 30 illik təcavüzü və işğal dövründə hərbi əməliyyatlar, qənimət götürmə, qarət, vandalizm kimi dağıdıcı əməllərin ölkəmizə 250 milyard manatlıq (150 milyard dollar) zərər vurduğu müəyyənləşdirilib.

Məruzəçi Azərbaycana dəyən zərərin qiymətləndirilməsi prosesi, onun mürəkkəbliyi və incəlikləri, eləcə də bu işin siyasi-hüquqi məsuliyyəti, doğuracağı nəticələr barədə də iştirakçıları ətraflı bilgiləndirdi. Alim xatırlatdı ki, müəyyən edilmiş zərər barədə Azərbaycan Prezidenti İlham Əliyev Rusiya mediasına müsahibəsində açıqlama verib və bu, beynəlxalq aləmdə ciddi əks-səda doğurub. Belə bir hesabat müvafiq Dövlət Komissiyasının, iqtisadçı və hüquqşünaslarımızın layiqli uğurudur.

Müzakirəyə canlı və onlayn qoşulan alimlər söylədilər ki, professor Nazim Müzəfferlinin irəli sürdüyü metodologiyanın və hazırlanmış hesabatın Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələrində, eləcə də blokadaya salınmış Naxçıvanda ölkəmizə vurulmuş sənədin rəsmi sənədləşdirilməsi və beynəlxalq ictimaiyyətə təqdim edilməsi baxımından olduqca əhəmiyyətlidir. Alimin təklifləri sırasında dövlət qurumları və qeyri-hökumət təşkilatları tərəfindən zərərin rəsmi reyestrinin yaradılması, beynəlxalq hüquqi mexanizmlərin (BMT, Haaqa Məhkəməsi və s.) işə cəlb edilməsi, təzminat və bərpa prosesləri üçün normativ baza və hüquqi sənədlərin hazırlanması kimi əsas istiqamətlər yer alır.

***T.AYDINOĞLU, N.QƏDİMOĞLU***
**XQ**

# MDB dövlətləri Miqrasiya Şurasının Bakı iclası



**Bakıda Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Miqrasiya Orqanları Rəhbərləri Şurasının (MDB MORŞ) 29-cu iclası keçirilir.**

Tədbirdə Dövlət Miqrasiya Xidmətinin rəisi, II dərəcəli dövlət miqrasiya xidməti müşaviri Vüsal Hüseynov açılış nitqi ilə çıxış edib. Xidmət rəisi bildirib ki, son illər ərzində Azərbaycanda mütərəqqi miqrasiya idarəçiliyi modeli formalaşdırılıb. Azərbaycan MDB ölkələri ilə miqrasiyanın tənzimlənməsi sahəsində qarşılıqlı faydalı fəaliyyətdə maraqlıdır.

Vüsal Hüseynov vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası regionda miqrasiya sahəsində yeni reallıqlar yaradıb. O, eyni zamanda, çıxışı zamanı azad edilmiş ərazilərdə mina probleminin mövcudluğunu, Azərbaycanın minalarla ən çox çirklənmiş ölkələrdən biri olduğunu və bununla bağlı Azərbaycanın rəsmi şəkildə humanitar minatəmizlənməni Dayanıqlı İnkişafın 18-ci milli məqsədi elan etdiyini bildirib.

MDB Parlamentlərarası Assambleyasının sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının sədri, Milli Məclisin deputatı Nizami Səfərov bildirib ki, MDB ölkələrinin parlamentləri miqrasiya sahəsində hüquqi bazanın təkmilləşdirilməsində mühüm rol oynayır.

Sonra MDB MORŞ-yə yeni sədr seçilib. Bu posta Rusiya Federasiyasının daxili işlər nazirinin birinci müavini - Vətəndaşlıq Məsələləri və Xarici Vətəndaşların Qeydiyyatı Xidmətinin rəisi Andrey Kikot seçilib.

Qeyd edək ki, MDB MORŞ 2007-ci il oktyabrın 5-də MDB Dövlət Başçıları Şurasının qərarına əsasən yaradılıb. MDB-nin sahəvi əməkdaşlıq orqanı olan MORŞ-da 8 dövlət təmsil olunur.

***XQ***

Xuntaçıların məhkəməsi

# Ermənistanın Azərbaycana hərbi müdaxiləsi barədə məxfi sənədlər məhkəmədə tədqiq olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 22-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə təqsirləndirilən şəxs Davit İşxanyanın 2016-cı ildə keçmiş qondarma qurumun televiziyasına verdiyi müsahibənin yer aldığı videomaterial nümayiş olunub.

Videomaterialda jurnalistin suallarını cavablandıran D.İşxanyan "Daşnaksütyun" tərəfdarlarının Azərbaycan ərazilərindəki fəaliyyəti barədə danışıb: "Daşnaksütyun" 1990–1991-ci illərdə Qarabağa gəldi. Əsas fəaliyyət təbii ki, cəbhə bölgəsində gedirdi. Ona görə də bu istiqamətdə iş aparılırdı. "Daşnaksütyun" təkcə silahla yox, maddi və insan resursları cəhətdən də Qarabağda fəaliyyət göstərirdi. Digər əsas məsələ isə təşkilatçılıq idi. "Daşnaksütyun" bizim üçün bir qalxan rolunu oynayırdı. Təsadüfi deyil ki, partiya 1990–1991-ci illərdə və 1994-cü ilə qədər ordu quruculuğunda, həmçinin digər sahələrdə öz parlaq fəaliyyətini göstərdi. O dövrdə daşnak nümayəndələri, döyüşçüləri və dəstələri formalaşırdı. Mən də həmin dövrdə onlardan biri olmuşam".

Azərbaycan ərazilərində yaradılan keçmiş qondarma qurumun Ermənistana birləşdirilməsi barədə teleaparıcının sualına cavab verən D.İşxanyan deyib: "Mənim də şəxsi fikrim budur ki, ən düzgün yol sonda Qarabağın Ermənistana birləşdirilməsidir. Bu, bizim əsas və son nəticəmiz olmalıdır. Hazırda keçid dövründəyik. Mənim üçün Qarabağ və tarixi Ermənistan eyni anlayışlardır, mən onları bir yerdə görürəm".

Televiziyaya verdiyi müsahibə barədə məhkəmədə dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab verən D.İşxanyan videomaterialda Qarabağın Ermənistana birləşdirilməsi barədə söylədiyi fikirləri "Daşnaksütyun"un deyil, "deputat" olaraq qondarma rejimin "parlament"inin fikirləri kimi səsləndirdiyini deyib.

Təqsirləndirilən şəxs dövlət ittihamçısı Təranə Məmmədovanın Azərbaycan ərazilərinin işğalının hansı zərurətdən irəli gəlməsinə dair sualına cavab verməkdən yayınıb.

Məhkəmə prosesində Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın 1993-cü ildə keçmiş qondarma qurumun nümayəndələri ilə keçirdiyi görüşə dair videomaterial nümayiş olunub.



Videomaterialda göstərilir ki, görüşdə çıxış edən Levon Ter-Petrosyan Azərbaycan ərazilərində qanunsuz olaraq yaradılan qondarma quruma Ermənistan adından ən yüksək təhlükəsizlik zəmanətləri verdiyini xatırladıb.

O, qondarma qurum ilə Ermənistan arasında imzalanacaq təhlükəsizlik zəmanətləri barədə müqaviləni məxfi sənəd adlandırıb.

Kadrlarda Ermənistanın keçmiş prezidenti müqavilənin iki nüsxədən ibarət olacağını deyərək əlavə edib: "Dağlıq Qarabağ respublikası" beynəlxalq ictimaiyyətin, Rusiya Federasiyasının, ABŞ-ın və xüsusilə Ermənistan Respublikasının prezidenti Levon Ter-Petrosyanın zəmanətlərinə güvənir".

L.T.Petrosyan bildirir ki, Ermənistan özünün bütün imkanlarından, o cümlədən birbaşa hərbi müdaxilədən istifadə edəcəyini öhdəsinə götürür və gələcək danışıqlarda Laçının Azərbaycana verilməsi ehtimalını istisna edir.

Dövlət ittihamını müdafiə edən prokurorların suallarını cavablandıran təqsirləndirilən şəxs Arkadi Qukasyan L.T.Petrosyanla keçirilən həmin görüşdə iştirak etdiyini deyib.

Həmin görüşü "taleyüklü məsələ" adlandıran təqsirləndirilən şəxs videomaterialın Kəlbəcər rayonu işğal olunduqdan sonra çəkildiyini xatırladıb. Bildirib ki, həmin görüş zamanı keçmiş qondarma qurumun Azərbaycanla danışıqlar aparan qrupunun rəhbəri və qurumun "deputatı" olub.

A.Qukasyan əlavə edib ki, bu görüşdən sonra Georgi Petrosyan "vəzifəsindən" istefa verib: "Parlamentin sədri vəzifəsini Karen Baburyan icra etməyə başladı. O isə Robert Köçəryanla birlikdə Levon Ter-Petrosyanın təqdim etdiyi sənədi imzaladı.

Həmin sənədə əsasən, Ermənistan Respublikası münaqişə tam başa çatanadək Qarabağın təhlükəsizliyinin təminatını öz üzərinə götürürdü".

Daha sonra dindirilən təqsirləndirilən şəxs Levon Mnatsakanyana Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov tərəfindən Şuşanın işğalı, işğalda iştirak edən şəxslərlə bağlı suallar ünvanlanıb.

L.Mnatsakanyan suallara cavabında Şuşanın işğalında iştirak edən Aşot Qulyanı tanıdığını, lakin onunla xidmət etmədiyini deyib.

Məhkəmədə L.Mnatsakanyanın da olduğu qondarma qurumun vəzifəli şəxslərinin müsahibə verdiyi videomaterial nümayiş etdirilib.

Videomaterialda L.Mnatsakanyan deyir: "Şuşanı tutan zaman Aşot Qulyanın bölüyündə olmuşam. Bizim bölüyümüz onların bölüyünün sol tərəfində – Şuşa qalası istiqamətində fəaliyyət göstərirdi və bölük ilə sıx əməkdaşlıq edirdi. Əsas cəbhənin yarılması mərkəzi və sol hissədə idi.

Ardınca dövlət ittihamçılarının sualını cavablandıran Levon Mnatsakanyan kadrlarda dediyi sözləri inkar edib.

Təqsirləndirilən şəxs bildirib ki, 1993-1994-cü illərdə onların əsas istiqamətləri Ağdərə, Ağdam, Cəbrayıl və Füzuli olub.

Məhkəmə prosesi mayın 23-də davam etdiriləcək.

***XQ***

# Borçalıların Zəlimxan Yaqub sevgisi



**Çağdaş poeziyamızın görkəmli nümayəndəsi, unudulmaz Xalq şair və ictimai xadim Zəlimxan Yaqubun 75 illik yubileyi doğulub böyüdüyü Borçalı torpağında da sevgi-sayğı ilə qeyd edilir. Bolnisi rayonunda soydaşlarımızın böyük icmasının yaşadığı, xalqımıza bir çox dəyərli ziyalı bəxş etmiş Faxralı kəndindəki 1 saylı ictimai məktəbdə də sənətkar ehtiramla yad edilib.**

Mərasimdə iştirak edən təhsil ocağının kollektivi, kənd əhalisi və qonaqlar sevimli həmyerlilərinin zəngin irsinin milli ədəbiyyatımıza yeni dəyər qazandırdığından öyünclə söz açıblar. Məktəbin direktoru Cümşüd Gülməmmədov məclisi giriş sözü ilə açaraq Zəlimxan Yaqubu Borçalı elinin yetişdirdiyi, doğulduğu torpağa şöhrət gətirən yurdsevər, istedadlı və bütün türk dünyasında sevilən bir şair olduğunu söyləyib.

Yubiley toplantısının təşkilatçısı "Qafqaz hüquq və inteqrasiya mərkəzi"nin Azərbaycan dili müəllimi Fatma Əliyeva, Borçalı məktəbinin ədəbiyyat müəllimləri Səmayə Musayeva və Aidə Nabadova Zəlimxan Yaqubun həyat yolu, onun milli ruhla yoğrulmuş yaradıcılığının ideya-sənətkarlıq məsələləri barədə söz açıblar.

Gürcüstan parlamentinin sabiq deputatı Ramiz Bəkirov Zəlimxan Yaqub poeziyasının təkcə Azərbaycanda deyil, ümumtürk ədəbi-mədəni aləmində böyük populyarlıq və rəğbət qazandığını qeyd edib, onun türklük sevgisinin gənclər üçün örnək olduğunu bildirib. Çıxış edən ziyalılar belə məclislərin Borçalıda milli-mənəvi dəyərlərin qorunması və yaşadılması baxımından önəmini vurğulayıblar.

Mərasimdə Zəlimxan Yaqubun həyat və yaradıcılığına həsr olunmuş videoçarx nümayiş etdirilib. Şagirdləri şairin yaradıcılığından nümunələr səsləndiriblər. Aşıqların yubiliyar şeirlərini saz havaları üstündə səsləndirmələri məclisə təntənə gətirib. Xalq şairinin xatirəsinə dərin ehtiramı ifadə edib.

***Nəriman ƏLİYEV***

**Tbilisi**

# "Araz–2025" birgə təlimi uğurla başa çatıb



**Azərbaycan və İran hərbi qulluqçularının iştirakı ilə keçirilən "Araz-2025" birgə təlimi uğurla yekunlaşıb.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, təlim çərçivəsində qarşıya qoyulmuş tapşırıqlar hər iki ölkənin hərbi qulluqçuları tərəfindən dəqiqliklə yerinə yetirilib. Plana uyğun olaraq, mərhələlər üzrə qarşılıqlı əlaqədə icra olunan fəaliyyətlər zamanı iştirakçılar yüksək döyüş hazırlığı nümayiş etdiriblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və təlimdə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

***XQ***

**Sənət söhbəti**

# Dramaturgiya yeni mövzular sorağında



**Çağdaş dövr özünün virtual mənzərəsi ilə diqqət çəkir. Kiber texnologiyalar həyatın əksər sahələrini əhatə edir. Azərbaycanda da süni intellektdən, yeni elektron idarəetmədən, "ağıllı" texnologiyalardan geniş istifadə olunur. Bu modernləşmənin mədəni sferaya da nüfuz etməsi hələlik işartı halında olsa da, görünür. Bəs teatr sahəsində yeniləşmə ab-havası necədir? Perspektivdə nələrə diqqət yetirilməlidir? Bu suallarla Teatr Xadimləri İttifaqının üzvü, Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, professor Əli Əmirliyə müraciət etdik. Onun fikirlərini oxuculara təqdim edirik.**

– Bütün sahələr, o cümlədən də teatr dəyişən dünyanın ritmini tutmalıdır. Yeni yanaşmalar qaçılmazdır. İnişil Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən Teatr və Kino forumlarını xatırlayaq. Hər iki tədbirdə bu sahələrin vəziyyəti, həllini gözləyən problemlər və inkişaf perspektivləri işgüzar müzakirəyə çıxarıldı. Ölkənin bütün teatr və kino xadimlərinin qatıldığı forumlar mədəni həyatımızda çoxdan görmədiyimiz bir canlanmaya səbəb oldu. Teatra və kinoya yaxından bələd olan bir dramaturq kimi deyim ki, hər iki forum məndə çox zəngin təəssürat yaratdı. Mədəniyyət Nazirliyinin yeni, həm də gənc komandasının çağdaş teatrımızın və kinomuzun indiki vəziyyətini, həllini gözləyən problemlərini və gələcəyi haqqında fikirlərini məhz illərlə bu mühüm mədəniyyət sahələrində çalışan insanların dilindən eşitmək, teatr və kinomuzun real vəziyyətini öyrənmək istəyi təqdirəlayiq idi.

Artıq sözügedən forumların müəyyən praktik nəticələri müşahidə olunur. Teatrlarımızda yaradıcı bir canlanma, özünü yaxşı tərəfdən göstərmək istəyi, hətta teatrlar arasında, yaxşı mənada, bir rəqabət də formalaşır. Ölkənin əsas teatrlarında gənc istedadlara şəraitin yaradılması, bu işdə bəzi rayon teatrlarının da artıq müəyyən müsbət nəticələr əldə etməsi göz qabağındadır. Kino ilə də bağlı qızğın axtarışlar gedir. Nazirliyin kino məmurları müvafiq yaradıcı və təhsil qurumları ilə işgüzar görüşlər keçirir, perspektiv inkişaf tendensiyalarını müəyyənləşdirirlər. Müasir Azərbaycan dramaturgiyası və onun problemləri, Azərbaycan ədəbiyyatında teatr və kino platforması konturları dolğunlaşdırılır.

Teatr, şübhəsizdir ki, dramaturgiyadan başlayır. Yüksək keyfiyyətli tamaşa hazırlamaq üçün ilkin şərt yaxşı pyesin olmasıdır. Bu gün bütün dünyada, hətta güclü kino sənayesi olan ölkələrdə belə ssenari problemi mövcuddur. Teatr dramaturgiyasına gəldikdə isə, yeni bir ifadə də yaranıb: "Yeni, yeni dram". Nədir bu "Yeni, yeni dram", onun platforması nədən ibarətdir? Cavab çox sadədir, istək də, məram da elə ifadənin özündədir. Köhnədən, onu tam inkar etmədən, uzaqlaşmaq, yeni dramaturgiya yaratmaq. Bu yeniliyi Rusiyada tapanlardan biri kinodramaturq, rejissor, aktyor Yuri Bıkovdur. O, nə müəllif filmi çəkir, nə də art-haus. Onun filmlərində bədii həqiqət də yox səviyyəsindədir. Bəs elə bir rejissor, dramaturq özəllikləri olmayan bəsit məzmunlu filmlər niyə belə uğur qazanır, milyonlarla tamaşaçı onun filmlərini niyə bəyənir? Baxmayaraq ki, bu filmlərdə cinayət, bir qayda olaraq, cəzasız qalır, bir qayda olaraq antaqonist protaqonistə qalib gəlir, bir sözlə, ədəbiyyatın, sənətin əsas ali məqsədi işləmir, qəsdən unudulur. Rejissorun "Axmaq" ("Durak") adlı filmində oğrular, quldurlar, qatillər, bir sözlə, cəmiyyətin əsl düşmənləri – cinayətkarlar qalib çıxırlar. Həyat həqiqətinin bədii həqiqətə qalib gəldiyi, əslində, bədii cəhətdən də zəif olan bu filmin tamaşaçı uğuru nəylə bağlıdır? Əlbəttə, postsovet ölkələrinin hamısına az və ya çox dəxli olan reallıqla, həyat həqiqəti ilə. Çoxsaylı nüfuzlu kino mükafatlarına layiq görülmüş məşhur rejissor Andrey Zvyaginsevin "Yelena" filmində də cinayət cəzasız qalır. Həqiqət yalan qarşısında aciz görünür. Bax, bu tendensiyanın bizim kinoda da müəyyən təzahürləri görünür. Əlixan Rəcəbovun, Taleh Yüzbəyovun, qismən Emil Quliyevin filmlərində həyat həqiqəti bədii həqiqəti üstələyir. Onlar da həm rejissor, həm ssenarist, həm də aktyor kimi çıxış edirlər və böyük tamaşaçı sevgisi qazanırlar. Niyə klassik hesab etdiyimiz ustadların filmləri nə prokatda, nə də yutubda bu uğuru əldə edə bilmir? Fikrimcə, bu barədə düşünməyə dəyər. Bu, kütlə zövqüdür deyib təsəlli tapmaq düzgün yol deyil. Həmin filmlər haqqında izləyicilərin rəy və şərhlərini oxumaq bəs edir ki, tamaşaçıların, kifayət qədər, yüksək səviyyəsinin şahidi olasan. Bu filmlərin müqayisəli analizi kinoşünaslarımızın üzərinə düşür.

Teatr dramaturgiyasında da belə bir meyil, zəif də olsa, var. Bu cür yanaşma daha çox axır vaxtlar intensiv şəkildə yaranan özəl teatrların tamaşalarında özünü göstərir. Bir daha məlum olur ki, doğrudan da, Yeni, lap yeni dramaturgiyaya ehtiyac var.

Rəyimi bilmək üçün gənc həmkarlarımın mənə göndərdiyi pyesləri məmnuniyyətlə oxuyuram, o pyeslərdə yenilik görməyəndə məndə, türklər demiş, xəyal qırıqlığı yaranır. Cavabım çox vaxt eyni olur. Mənim və ya mənsub olduğum nəslin nümayəndələri kimi yazmayın, biz bu yolu keçmişik, hələ keçməkdə də davam edirik. Gənclərdən yeni nəfəs, yeni material, yeni keyfiyyət gözləyirik.

Eyni zamanda, yeni nəsil dramaturqların meydana gəlməsi şəxsən məni sevindirir. Nisbətən gənc dediyim, 50-ni tamam eləməmiş, amma artıq yetkin bir dramaturq kimi teatrda və kinoda özünü təsdiq etmiş İlqar Fəhminin adını məmnuniyyətlə çəkirəm. Daha gənc həmkarlarımı da yada salmaq istəyirəm: İsmayıl İman, Pərvin Nurəliyeva, Təranə Vahid, Ülviyyə Heydər, Cavid Zeynallı, Pərviz Seyidli, Nihad Qulamzadə, Orxan Bahadırsoy, Könül Məmmədova, Failə Nəbi, Elvin Nuri... Bu müəlliflərin hamısının yaradıcılığı ilə tanışam, əksəriyyətinin əsərləri artıq səhnə və ekran həyatı qazanıb, uğurları da var. Sevindirici haldır ki, Cavid Zeynallının "Şükriyyə" pyesi Bəhram Osmanovun quruluşunda ölkənin baş teatrında – Akademik Milli Dram Teatrında böyük uğurla tamaşaya qoyuldu.

İstərdim, teatrlarımız, elə kinomuz da onların əsərlərinə diqqətlə, inamla yanaşsınlar. Həm də müasir ədəbi proseslə, tək dramaturqlarla deyil, nasirlərlə də maraqlansınlar. Axı teatrda səhnələşdirmə kimi bir anlayış da var: ən yaxşı nəsr əsərlərinin səhnələşdirilməsi. Təcrübə göstərir ki, xeyli uğurlu tamaşalar və filmlər çox vaxt səhnə və ya ekran üçün nəzərdə tutulmamış əsərlərin səhnələşdirilməsindən və ya ekranlaşdırılmasından alınır. L.Tolstoyun məşhur "Anna Karenina" romanı 30 dəfədən çox ekranlaşdırılıb. Bu sarıdan Azərbaycan teatrının da, kinosunun da kifayət qədər zəngin təcrübəsi var. Səməd Vurğunun "Komsomol" poemasının həm səhnələşdirilməsi, həm də "Yeddi oğul istərəm" adı ilə ekranlaşdırılması böyük uğur idi. "Altmışıncılar" dediyimiz ədəbi nəslin ən yaxşı nəsr əsərləri həm teatrlarımızda, həm də kinomuzda uğurla istifadə olunub. Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanı ölkənin bütün teatrlarında səhnələşdirilib, bir neçə dəfə də ekranlaşdırılıb. Əlbəttə, bu məsələdə gənc müəlliflərin özlərinin də təşəbbüskarlığına ehtiyac var. Təəssüf ki, dramaturgiya ilə məşğul olmayan yazıçılarımızı teatr salonlarında nadir hallarda görərsən.

Bütün dediklərimizlə bərabər, orijinal bir inkişaf istiqamətini, tam yeni olan bir dramaturgiyanı gözləyirsən, müsbət nəticə hələ təzahür formasındadır. Təəssüf, gənclərin yazdığı pyeslərin əksəriyyəti ənənəvi dramaturgiyanın zəif təkrarıdır.

Çox istərdim bizdə hələ pərvəriş tapmamış sənədli dram janrında pyeslər yazılsın. Tariximizin, xüsusilə, Cümhuriyyət dövrünün elə hadisələri, elə gizlinləri olub ki, onların sənədli dram kimi səhnəyə gətirilməsi əsl teatr hadisəsinə çevrilə bilər. Elə müasir dövrümüzü də səhnədə sənədli şəkildə görmək pis olmaz. Əslində, buna təşəbbüs də olub. Tərlan Rəsulovun "dOM" teatrında müasir dövrümüzdə baş vermiş dramatik bir məktəb əhvalatı əsasında İsmayıl İmanın yazdığı "İclas" və "Proses" pyeslərindən hazırladığı immersiv tamaşada sənədli teatrın təzahürləri qabarıq şəkildə görünür. Əlbəttə, bu yerdə teatr həyatımızda parlaq hadisəyə çevrilmiş Mehriban Ələkbərzadənin "Kod adı – V.X.A." müəllif tamaşasının adını məmnuniyyətlə çəkirəm. Bu möhtəşəm tamaşanın dramaturji mətni, demək olar ki, əsl dokumental dram janrındadır. Böyük tamaşaçı marağı, müxtəlif səviyyələrdə yazılmış resenziyalar, rəylər göstərdi ki, bizim üçün yeni olan bu dramaturji janr Azərbaycan səhnəsində yaşamaq hüququ qazana bilər. Hətta seyrçi bu hövsələsizlik zamanında 4 saat davam edən tamaşaya böyük maraqla baxa da bilər. Təbii ki, bu yerdə biz tarixi mövzuda yazılmış pyeslə sənədli dram janrını qarışdırmamalıyıq.

Təəssüf ki, dramaturgiya ilə intensiv şəkildə məşğul olan gənclərin sayı çox deyil, teatrla ədəbiyyat arasında olan bu çətin ədəbi növə həvəs göstərmək, ona yiyələnmək üçün tək yazıçı istedadı azdır, çox şərtlər var.

İndi isə fikirlərimi konkret təkliflərimlə bitirirəm: 1. Yaxşı olardı ki, Azərbaycan Yazıçılar Birliyi ilə Mədəniyyət Nazirliyinin müvafiq qurumu yaxın əməkdaşlıq şəraitində işləsinlər. Yeni adlar, yeni əsərlər haqqında nazirlik daim məlumatlı olsun. 2. İstərdim, özəl teatrlar xarici müəlliflərin əsərlərindən daha çox gənc dramaturqlarımızın yaradıcılığına diqqət yetirsinlər, onların əsərləri ilə tanış olsunlar, teatrın, səhnənin, dramaturgiyanın dilini öyrənməkdə onlara kömək etsinlər. Həqiqətən, dram da, dramaturq da teatrla sıx əlaqədə, təmasda yaranır. Yaxşıdır ki, Teatr Xadimləri İttifaqında bir neçə yaradıcılıq emalatxanaları ilə bərabər, dramaturgiya emalatxanası da fəaliyyət göstərir. Adlarını çəkdiyim gənc dramaturqların bir çoxu məhz həmin emalatxananın məzunlarıdır. 3. Özəl teatrların ayaqda qalmaları üçün onlara dövlət səviyyəsində maliyyə dəstəyi göstərilsə, yaxşı olar. Çünki müasir teatrın inkişafı, sənət yenilikləri entuziazm hesabına işləyən o teatrlarda daha tez yarana bilər, nəinki ənənəvi repertuar teatrlarında. Dövlətimiz kütləvi informasiya vasitələrinə, özəl televiziyalara, yaradıcılıq ittifaqlarına, siyasi partiyalara maliyyə dəstəyi ayırır, bu çox gözəl, o siyahıya özəl teatrların ən yaxşılarını da əlavə etmək müsbət nəticələnə bilər. Tək təşəbbüslə uzağa getmək çətindir.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***




**"Xəzər" bədii-tərcümə jurnalının ilk sayı 1989-cu ildə çıxıb və bu önəmli nəşr Azərbaycan tərcümə məktəbinin formalaşmasında müstəsna rol oynayıb. Dövlət Tərcümə Mərkəzi ləğv olunandan sonra, bu ildən dərginin Azərbaycan Dillər Universitetinin Tərcümə Araşdırmaları Mərkəzinin nəzdində nəşr olunması qərara alınıb. Budur, "Xəzər"in 2025-ci il üçün ilk sayı qarşımızdadır. Jurnalın məsləhətçisi Xalq yazıçısı, akademik Kamal Abdulla, redaktoru yazıçı-tərcüməçi Etimad Başkeçiddir.**

# "Xəzər" ədəbi aləmə qayıtdı




Dərginin redaksiya heyətinə Saday Budaqlı, Nəriman Əbülrəhmanlı, Yaşar Əliyev, Püstə Axundova və Cavid Zeynallı daxildir. Həmçinin jurnalın Türkiyə, Gürcüstan, İtaliya, Rusiya, Qazaxıstan və başqa ölkələrdən olan tanınmış naşir və yazıçılardan ibarət beynəlxalq Şurası da formalaşıb.

Jurnal redaktorun təqdim etdiyi dərginin məramnaməsi –"Tərcümənin və tərcüməçinin problemi: bizdə nə yoxdur, nə çatışmır" yazısı ilə açılır. Yeni sayda elmi-nəzəri araşdırmalar, orijinaldan bədii tərcümələr yer alıb, klassik və çağdaş dünya ədəbiyyatının seçmə nümunələri təqdim olunub. "İlin nobelçisi" rubrikasında Koreya nəsrində impressionist üslubu ilə seçilən Han Kang haqqında məlumat və tənqidçi Kan Çjixinin onunla müsahibəsi, eləcə də "Nobel mühazirəsi" ilə bərabər, "İnsan əməlləri" romanından parça verilib.

"Şərq mədəniyyəti" rubrikasında böyük mütəfəkkir, sufi şair və filosof Şəms Təbrizinin 840 illiyi ilə bağlı materiallar, Karakasda keçirilmiş I Beynəlxalq Poeziya Festivalında iştirak etmiş Mahir N. Qarayevin səfər təəssüratları, "Şimali Amerika ədəbiyyatı"nda Nobel mükafatı laureatı, yəhudi əsilli Amerika yazıçısı Sol Bellounun irihəcmli "Gümüş nimçə" hekayəsi oxuculara təqdim edilib. Leroy Consun "Uçan hollandiyalı" pyesi də maraqlıdır. Kanadalı yazar Marqaret Ətvudun, fransalı ispan Anri Arbilin şeirləri, Lev Tolstoyun ədəbi irsindən tərcümələr, ukraynalı Natali Kulişin "Onuncu paralel" hekayəsi də diqqət çəkir.

Yeni sayda türk xalqları və Yaxın Şərq ədəbiyyatı nümunələri, "Debüt", "Mövqe" və "Yaddaş" rubrikaları, tərcümə aləminin yenilikləri barədə daydcest də yer alıb. Dərgidə yayımlanan rubrikalarda oxucuların dünyagörüşünün artırılması, ədəbi zövqünün formalaşması, estetik dəyərlərin təbliğ olunması kimi amillərə diqqət yetirilib.

**Baş redaktor Etimad Başkeçid:**

– Yenicə işıq üzü görən jurnaldakı məqaləmizdə qeyd etdiyimiz kimi, dünya təcrübəsinə istinad etsək, bilməliyik ki, öz çoxşaxəli fəaliyyəti ilə bir mədəniyyət mikrokosmuna çevrilmiş müasir dünya universitetləri fundamental və tətbiqi elm sahələrinin problemlərini ehtiva edən dərgilərlə yanaşı, ədəbiyyat, incəsənət, tərcümə, vizual mədəniyyətə aid bir çox elmi-populyar jurnallar da nəşr edir və bu praktika getdikcə genişlənməkdədir. Bu mənada ADU və "Xəzər" Azərbaycanda pionerdirlər.

***Ə.ƏLİYEV***
***XQ***

**Unudulmayan xatirə**

# "Kino səyahətçiləri" Naxçıvana gəlmişdi...

**...Naxçıvana – qədim diyara gəlişimiz 1999-cu ilin sentyabr ayına təsadüf edirdi. İndi o günlərdən neçə illər keçsə də, heç nə yaddan çıxmayıb, unudulmayıb. Mömünə xatun türbəsinin önündə bir dəstə toy libaslı qız-gəlin vardı, sanki ulu nənələrinin ruhuna hesabat verirdilər. Azca aralıda Rusiya televiziyasının şərhçisi, "Kino səyahətçiləri klubu"nun məşhur aparıcısı, dünya şöhrətli tanınmış norveçli səyyah, etnoqraf və alim-antroloq Yuri Aleksandroviç Senkeviç dayanmışdı. O, Naxçıvanla bağlı film çəkdiyini bildirdi. Yol yoldaşımız, söz adamı, gömrük xidməti polkovniki Hacı İdris Cəfərov 1969-cu ildə Misir Ərəb Respublikasında onunla görüşdüyünü bildirəndə Yuri Senkeviç gülümsündü:**



– Onda Norveç səyyahı Tur Heyerdalın komandasında "Ra" papirus qayığı ilə Atlantik okeanını üzməyə hazırlaşırdıq, – dedi.

– Siz heyətin həkimi idiniz, – Hacı İdris Cəfərov əlavə etdi.

– Tamamilə düzdür, – Yuri Senkeviç bildirdi.

Yuri Senkeviç 1981-ci ildə Bakıda olmağından böyük həvəslə danışdı. Qobustana qaya təsvirlərinə baxmağa gəlibmiş. Bakıya ikinci gəlişində isə Azərbaycanın dövlət başçısı İlham Əliyevin qəbulunda olacaqdı. Bu, 2011-ci ilin oktyabr ayında baş tutacaqdı. İndi isə 1999-cu il idi.

Böyük yazıçı Cəlil Məmmədquluzadənin ev-muzeyində olduğumuzu biləndə Yuri Senkeviç gülümsündü.

– Cəlil Məmmədquluzadə dünya şöhrətli yazıçı-dramaturq, tanınmış jurnalist, ictimai xadimdir, – dedi. – Bir gün əvvəl mən də yazıçı-dramaturqun xatirə muzeyində olmuşam. Həyat və fəaliyyətini əks etdirən eksponatlara baxdım, olanları lentə aldıq.

**Yuri Senkeviç azacıq sükutdan sonra sözünə davam edərək dedi:**

– Nehrəm qədim kənddir, – Çaylaq. Qumqala, Əyribucaq yaşayış məntəqələri kəndin qədim məhəllələrindən hesab olunur. Ailələr artdıqca yeni məhəllələr yaranıb. – Norveçli səyyah sonra cibindən çıxartdığı kitabçadakı vərəqləri çevirdi, qeyd etdiyi digər məhəllələrin adını çəkdi. – Xəndək, Bağarası, Təzə məhəllələr sonra yaranıb. Maraqlıdır ki, hər məhəllənin öz ağsaqqalı var. Məni maraqlandıran, hətta təəccübləndirən o idi ki, kənddə birlik, yekdillik, böyük-kiçiklik var. Adamlarla görüş məndə xoş təəssürat oyatdı. Yaxşı cəhət burasıdır ki, kənddə ailə münaqişələrinə, xüsusilə, boşanma hallarına yol verilmir. Belə hallar yarananda ağsaqqallar qabağa çıxır, məsələni yoluna qoyurlar.

Yuri Senkeviç Nehrəmlə bağlı sənədli film hazırlamaq fikrində olduğunu bildirdi.

Sonra xatirə olaraq Norveç səyyahı ilə şəkil çəkdirdik.

Yuri Senkeviçin 2003-cü ilin sentyabrında, 66 yaşında Moskvada ürək xəstəliyindən vəfat etdiyi xəbərini eşitdik.

***Hacı Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan***
***"Aşkarlıq" qəzetinin baş redaktoru***

# Türkiyə–İsrail dialoquna Bakı dəstəyi

**İsrail və Türkiyə Suriyada münaqişələrin qarşısını almaq və hərbi əməliyyatları koordinasiya etmək məqsədilə xüsusi "qaynar xətt"in yaradılması barədə razılığa gəliblər. Bu barədə "Middle East Eye" nəşri məlumat yayıb. Məlumata əsasən, razılıq Azərbaycanın vasitəçiliyi ilə 2 ölkənin nümayəndələri arasında keçirilmiş son danışıqlar nəticəsində əldə olunub.**



Şübhəsiz ki, bu təşəbbüs Azərbaycanın regional və beynəlxalq nüfuzunu artıran, diplomatik mövqelərini gücləndirən və onu mürəkkəb geosiyasi mühitdə etibarlı tərəfdaş kimi təsdiqləyən mühüm addımdır. Eyni zamanda, bu, Türkiyə və İsrail kimi iki mühüm tərəfdaş arasında gərginliyin Azərbaycanın maraqlarına zidd olması səbəbindən Bakının həyata keçirdiyi fəal və balanslaşdırılmış diplomatiyanın bariz nümunəsidir.

Azərbaycanın vasitəçilik rolu bir neçə mühüm amillə şərtlənir. Hər iki ölkə ilə mövcud olan strateji tərəfdaşlıq onu etibarlı və qəbul edilə bilən vasitəçiyə çevirir. "Qaynar xətt"in əsas məqsədi Suriyada fəaliyyət göstərən Türkiyə və İsrail hərbi qüvvələri arasında insident və toqquşmaların qarşısını almaqdır. Mənbələrə görə, danışıqlar davam edir və o cümlədən Türkiyənin Suriyada hava hücumundan müdafiə sistemləri və radarlarının yerləşdirilməsi məsələlərini də əhatə edir.

Bu razılaşma, Suriyadakı mürəkkəb vəziyyətdə potensial toqquşmaların azaldılması baxımından əhəmiyyətli addım kimi dəyərləndirilir. Regional sabitlikdə maraqlı olan Azərbaycan üçün Suriyadakı münaqişə və orada fəaliyyət göstərən böyük güclər arasında gərginlik, geniş mənada Cənubi Qafqaz və Yaxın Şərq regionuna birbaşa təsir potensialına malikdir. Bu səbəbdən Bakı gərginliyin azaldılması və etibarlı kommunikasiya kanallarının qurulmasında maraqlıdır. Türkiyə və İsrail arasında birbaşa əlaqə xəttinin yaradılması eskalasiya risklərini azaldaraq Azərbaycanın təhlükəsizlik mühitinə də müsbət təsir göstərir.

İki mühüm regional güc arasında dialoqun təşviqi Azərbaycanın Cənubi Qafqazda və geniş regionda təsir imkanlarını artırır. Siyasi təhlilçilər bu vasitəçiliyin Azərbaycan–Türkiyə və Azərbaycan–İsrail münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verdiyini vurğulayırlar.

Bundan əlavə, uğurlu vasitəçilik gələcəkdə Bakı üçün vacib olan digər regional və beynəlxalq məsələlərdə həm Türkiyə, həm də İsrailin siyasi dəstəyini təmin etmək üçün zəmin yarada bilər. Bu, Azərbaycanın özünü sülhməramlı, dialoq yönümlü və münaqişələrin həllinə töhfə verən dövlət kimi təqdim etməsinə imkan yaradır. Nəticə etibarilə, Azərbaycan yalnız enerji resursları ilə deyil, həm də diplomatik bacarıqları və vasitəçilik potensialı ilə tanınmağa başlayır.

Politoloqların fikrincə, Azərbaycanın həm Qərb, həm də İslam dünyasında mühüm aktorlarla sıx əlaqələr saxlaması, ona bloklardan kənar, balanslı və çevik xarici siyasət yürütmək imkanı verir. Bu da ölkənin daxili sabitliyi və xarici təzyiqlərə qarşı dayanıqlılığı baxımından strateji üstünlükdür.

Nəticə olaraq, bu vasitəçilik təşəbbüsü Azərbaycanın çoxşaxəli xarici siyasətinin, müxtəlif güc mərkəzləri ilə balanslı münasibətlər qurmaq bacarığının göstəricisidir. İki əsas tərəfdaşı arasında körpü rolu oynamaqla Azərbaycan regionda öz mövqeyini daha da möhkəmləndirir. Bu, ölkənin hərbi və iqtisadi gücündən əlavə, diplomatik və vasitəçilik qabiliyyətlərini,- yəni "yumşaq güc"ünü, - ön plana çıxarır.

Eyni zamanda, bu təşəbbüs Azərbaycanın dinlərarası dialoq və əməkdaşlığa sadiqliyinin də bir ifadəsidir. Həm müsəlman dünyasının aparıcı ölkəsi olan Türkiyə, həm də yəhudi dövləti olan İsraillə yüksək səviyyəli münasibətləri olan Azərbaycan bu təşəbbüslə Cənubi Qafqaz və Yaxın Şərqdə diplomatik çəkisini artırır, sivilizasiyalararası dialoqu təşviq edən regional lider rolunu daha da möhkəmləndirir. Bu isə ölkənin uzunmüddətli strateji üstünlüklər əldə etməsinə xidmət edir.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Cənubi Qafqaz ölkələri problemləri özləri həll etməlidir




**"Regionda davamlı sülhə nail olmaq üçün İrəvan Bakı ilə sülh müqaviləsi bağlamalıdır. Müqavilə Rusiya, Ermənistan və Azərbaycan liderləri arasında üçtərəfli sazişlər toplusuna əsaslanmalıdır. Hazırda Moskvanın İrəvanla Bakı arasında münasibətlərin tam normallaşmasına ehtiyacı var".**

Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ararat Mirzoyanla görüşündə bildirib. Onun sözlərinə görə, Cənubi Qafqazın problemləri yalnız region ölkələri və onların ən yaxın qonşuları tərəfindən həll edilməlidir: "Xarici ölkələrin region dövlətləri ilə əlaqələrini inkişaf etdirməsinə qarşı etirazımız yoxdur. Bir şərtlə ki, belə qarşılıqlı əlaqə gərginlik yaratmağa və ya xoşagəlməz nəticələrə gətirəcək geosiyasi oyunlar naminə yerli ölkələrin maraqlarına qarşı yönəlməsin".

S.Lavrov qeyd edib ki, Rusiyanın mövqeyi səmimi və gizli motivlər olmadan işləməyə hazır olan hər kəslə əməkdaşlığa açıqdır: "Biz Rusiyanın İrəvan və Bakının sülh sazişinin bağlanması, iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması, həmçinin dövlət sərhədinin delimitasiyası, demarkasiyası vasitəsilə hərtərəfli sülhə, razılığa nail olmağa doğru irəliləməsinə bundan sonra da yardım etməyə hazır olduğunu təsdiqlədik".

Beləliklə, Lavrov aydın şəkildə bildirir ki, İrəvan Bakı ilə sülh müqaviləsi imzalamalıdır və bu sənəd 2020-ci il 10 noyabr tarixli və sonrakı üçtərəfli bəyanatlara əsaslanmalıdır. Bu, Rusiyanın Cənubi Qafqazda vasitəçi rolunu davam etdirmək və prosesləri öz himayəsi altında saxlamaq niyyətini göstərir. Nazirin dediyi "xarici ölkələrin geosiyasi oyunları" ifadəsi ilə, o, Qərbin, xüsusilə də ABŞ və Fransanın bölgəyə artan təsirinə qarşı xəbərdarlıq edir. Bu, Moskvanın bölgədəki mövqeyinin zəifləməsi fonunda ölkəsinin narahatlığını əks etdirir. Lavrovun "səmimi və gizli motivlər olmadan" ifadəsi isə Moskvanın etibarlı vasitəçi imicini qorumaq cəhdidir. Amma reallıqda bu mövqe həm də Rusiyanın bölgədə maraqlarının təmin olunmasına xidmət edir.

***

Moskva həm də nəqliyyat kommunikasiyalarının açılmasında maraqlı olduğunu bildirir. Azərbaycanın 44 günlük müharibədə qələbəsindən sonra Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanatda və ondan sonrakı bəyanatlarda regionda kommunikasiyaların, xüsusilə, Zəngəzur dəhlizinin açılması ilə bağlı maddə əksini tapıb. Bəyanatın 9-cu bəndinə əsasən, Ermənistanın ərazisində yerləşən Zəngəzurdan Naxçıvana hərəkət manesiz olmalıdır. Bu dəhliz Moskva üçün strateji əhəmiyyət daşıyır. Deməli, bu, yalnız Azərbaycan üçün deyil, Cənubi Qafqazdan Türkiyəyə və Yaxın Şərqə çıxış baxımından Rusiya üçün də mühüm nəqliyyat bağlantısıdır. Bu səbəbdən Bakı və Moskva sözügedən məsələnin mümkün qədər tez həllini istəyir. Fəqət, Ermənistanın adekvat reaksiya sərgiləməməsi Zəngəzur dəhlizinin fəaliyyətə başlamasını gecikdirir.

Mövzu ilə bağlı danışan Milli Məclisin deputatı Samir Vəliyev bildirdi ki, regionda kommunikasiyaların bərpası bütün ətraf ölkələr üçün böyük önəm kəsb edir: "Dəhlizin işə düşməsi ilə Naxçıvanın blokadasına son qoyulacaq. Eyni zamanda, dəhliz fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın əsas yolları ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm halqa olacaq. Dəhlizin açılması Ermənistan üçün də faydalıdır. Çünki bundan onlar da dividend qazanacaqlar".

Beləliklə, nəqliyyat reallığı nəzərə alıb dəhlizin ərazisindən açılmasına razılıq verməyəcəyi təqdirdə bundan ən çox zərər görən Ermənistan olacaq. Baş nazir Nikol Paşinyan bunu başa düşür. O, parlamentdə "hökumət saatı"nda çıxışlarından birində deyib ki, regionda iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması Ermənistanın Avrasiya İqtisadi İttifaqına (AİI) üzv ölkələrlə ticarət dövriyyəsinin həcmini artıracaq. Bu kimi üstünlüklərə baxmayaraq, bu gün iki ölkə arasında kommunikasiyalar bağlıdır. Görünür, Hayastana təsir göstərən xarici qüvvələr ona Zəngəzur dəhlizinin açılmasına icazə vermirlər. İstənilən halda, maneələrə baxmayaraq, dəhliz gec-tez işə düşəcək.

***

Rusiyanın baş diplomatı çıxışında onu da qeyd edib ki, Cənubi Qafqaz ölkələri və onların ən yaxın qonşularını birləşdirən "3+3" platforması regional əməkdaşlığın inkişafı üçün ciddi potensiala malikdir: "Bu platforma uzunmüddətli sülh və təhlükəsizliyin möhkəmləndirilməsində mühüm alət olmaq, həmçinin Cənubi Qafqaz ölkələri və onların yaxın qonşuları arasında qarşılıqlı faydalı ticari-iqtisadi əməkdaşlığın, nəqliyyat əlaqələrinin və mədəni ənənələrin inkişafına töhfə vermək üçün bütün ilkin şərtlərə malikdir. ...Biz üçüncü görüşün keçiriləcəyi yer barədə müzakirə apardıq. Hesab edirəm ki, bu tədbirə evsahibliyi etmək istəyən Ermənistan və Azərbaycan öz aralarında razılığa gələ bilər".

Rusiya XİN rəhbərinin bu açıqlaması ilə "3+3" platformasının regionda qarşılıqlı faydalı ticari-iqtisadi əlaqələrin inkişafına töhfə verməsi, mədəni əlaqələrin gücləndirilməsi məqsədilə böyük potensiala sahib olduğunu vurğulayır, onu tərəflər arasında uzunmüddətli sülh və təhlükəsizliyin təmin edilməsi üçün yaxşı alət olaraq görür. Rusiya, Ermənistan və Azərbaycan arasında bu platformanın növbəti görüşünün təşkilinə kömək etməyə hazır olduğunu bildirən Lavrov iki ölkənin paytaxtlarında keçiriləcək görüşlərin tərəflər üçün faydalı olacağına ümidini ifadə edir.

***

Oxuculara xatırladaq ki, bir müddət əvvəl Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bəyan etmişdi ki, Bakı sülh yolu ilə nizamlanma çərçivəsində İrəvanla bir neçə istiqamətdə işləyir, tərəflər sərhədin delimitasiyası üzrə əvvəllər başlamış təmasları davam etdirir. Azərbaycan Ermənistandan nəqliyyat dəhlizlərinin açılması ilə bağlı öhdəliklərini yerinə yetirməsini gözləyir.

Beləliklə, Rusiya Cənubi Qafqazda zəifləmiş mövqeyini gücləndirmək, Qərbin Ermənistana təsirini neytrallaşdırmaq, Azərbaycanla strateji əməkdaşlığı möhkəmləndirmək niyyətindədir. Onun bu niyyətində nə qədər səmimi olduğu isə başqa yazının mövzusudur.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

**Avropa İttifaqının bir çox aparıcı dövlətlərinin diplomatları hələ də bir sıra keçmiş MDB ölkələrində özlərini qeyri-adi səlahiyyət sahibləri kimi aparırlar. Onlara, nədənsə, elə gəlir ki, burada istədikləri siyasi, ictimai və hüquqi məsələlərə qarışa bilər və hətta məhkəmələri arzu etdikləri məcraya yönələ bilərlər. Bu, əlbəttə, səhv yanaşmadır və beynəlxalq hüquqi normaların kobud surətdə pozulması deməkdir.**

# Batumi məhkəməsinə Qərbin müdaxiləsi

## *Xarici diplomatların Gürcüstanın daxili işlərinə qarışması təzyiq və təhdiddir*

Qərbli siyasətçilərin "gənc demokratik ölkələrə" qarşı eqoistik yanaşma nümayiş etdirməsi həmin ölkələrin ziyalıları, elmi ictimaiyyəti, vətəndaş cəmiyyəti fəalları arasında haqlı narazılığa səbəb olur. Avropa siyasətçiləri belə bir həqiqəti unudurlar ki, böyük və kiçikliyindən asılı olmayaraq,




beynəlxalq hüququn subyekti olan hər bir ölkənin vətəndaşlarının milli heysiyyətinə toxunmağa, onlara yuxarıdan aşağı baxmağa heç kimin mənəvi və hüquqi haqqı yoxdur.

Gürcüstanda bu günlərdə vətəndaşla Almaniyanın səfiri arasında baş verən qalmaqal qeyri-səmimi münasibətlərin doğurduğu fərqli mövqe və yanaşmalardan qaynaqlanır. Avropa bunun fərqində olmalıdır və bərabərhüquqlu münasibətlərin əhəmiyyətini dərk etməyə çalışmalıdır. Təəssüf ki, Qərb siyasətçiləri adi həqiqətləri belə normal qəbul edərək səhvlərini etiraf etməyi özlərinə rəva görmürlər.

İndi isə əsas mətləbə keçək. Mayın 16-da Batumi Şəhər Məhkəməsində Gürcüstanın tanınmış müxalifətçi jurnalisti və media meneceri Mzia Amağlobelinin məhkəmə prosesində birdən-birə 3 Avropa ölkəsi–Almaniya, İsveç və Estoniyanın Tbilisidəki səfirləri iştirak ediblər. Bundan əlavə, məhkəmə prosesinə Batumiyə



xüsusi olaraq bu məqsədlə gəlmiş Avropa Parlamentinin Avstriyadan olan üzvü Lena Schilling də qatılıb.

Həmin gün məhkəmə gərgin keçsə də, qeyri-adi, fövqəladə bir insident baş verməyib. Lakin 2 gün sonra, yəni mayın 18-də, məhkəmənin növbəti iclasında iqtidarda olan "Gürcü arzusu" partiyasının qızğın tərəfdarı Valeri Koçiaşvili adlı bir nəfər ilə Almaniyanın Gürcüstandakı səfiri Peter Fişer arasında kəskin qalmaqal yaşanıb. Belə ki, vətəndaş Almaniya səfirini ölkəsinin daxili işlərinə qarışmaqda suçlayaraq, səfirin məhkəmə zalında iştirakına qəti etirazını bildirib. Müxalifət yetkililəri belə bir maqamı da iddia edirlər ki, həmin şəxs səfirin ünvanına təhqiramiz sözlər də işlədib.

Gürcüstanın bir çox media nəşrlərinin yazdığına görə, Valeri Koçiaşvili bundan sonra özünün "TikTok" səhifəsində almaniyalı diplomatı necə təhqir etdiyini fəxrlə təsvir edən videolar yerləşdirib. O, sosial şəbəkələrdəki çıxışında da kobud ifadələr işlədib və deyib ki, "Peter Fişer Gürcüstanda aclıqdan ölməlidir". Bu insident qonşu ölkədə geniş ictimai rezonansa səbəb olub.

Gürcüstan mətbuatı yazır ki, Qərb diplomatları Mzia Amağlobelinin məhkəmə prosesinə xüsusi maraq göstərirlər. Avropa ölkələrinin ayrı-ayrı səfirliklərinin nümayəndələri məhkəmə iclaslarına tez-tez qatılırlar. Qərbli diplomatlar bununla da məhkəmə prosesinə təsir göstərməyə çalışırlar. Həbsdə olan jurnalistin vəkili iddia edir ki, hüquqlarını müdafiə etdiyi şəxs siyasi sifarişlərlə, qanunsuz olaraq həbs edilib. Hökumət rəsmiləri bu ittihamları qətiyyətlə rədd edirlər.

Xatırladaq ki, iqtidar əleyhinə kəskin siyasi baxışları ilə seçilən Mzia Amağlobeli populyar "Batumelebi" və "Netgazeti" qəzetlərinin təsisçisi və direktorudur. Bu nəşrlərdə vaxtaşırı onun iqtidar nümayəndələri barədə kəskin tənqidi yazıları dərc olunur. 4 aydan çoxdur ki, Mzia Amağlobeli həbsdədir. O, bu yaxınlarda 38 gün aclıq aksiyası keçirib.

Müxalifət iddia edir ki, Batumidəki məhkəmə insidenti "Gürcü arzusu"nun və hökumətyönlü medianın səfirə qarşı ittihamlarının artması fonunda baş verir. Səfir Peter Fişerin jurnalist Mzia Amağlobelinin məhkəmə iclaslarına gələrək "Mziaya azadlıq" şüarı fonunda müsahibə verməsi ölkə ictimaiyyətində kəskin reaksiyaya səbəb olub. Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili də diplomatı Vyana Konvensiyasının qanunlarını pozmaqda ittiham edib.

Gürcüstanın artıq sabiq, 5-ci prezidenti Salome Zurabişvili Batumidə baş verən hadisəni pisləyib. O, bu günlərdə Almaniyanın səfiri ilə görüşüb və onunla həmrəy olduğunu bildirib: "Bu, təkcə səfirə qarşı deyil, bütün Gürcüstana təhqirdir. Almaniya 30 ildir ki, bizi dəstəkləyib və Gürcüstana Avropa İttifaqı üzvlüyünə namizəd ölkə statusunun verilməsində mühüm rol oynayıb. Bugünkü liderlərin çoxu Almaniyada təhsil alıblar. Batumidə səfiri müdafiə etmək üçün ayağa qalxan bütün vətəndaşlara təşəkkür edirəm. Almaniya bizim dostumuzdur və Gürcüstanın əksər vətəndaşlarına tam dəstəyimizi bildiririk".

Yeri gəlmişkən, Almaniya səfirliyi də, öz növbəsində hadisəni təsdiqləyib və diplomata dəstək verən Gürcüstan vətəndaşlarına təşəkkür edib.

Görünən budur ki, Avropanın bir çox aparıcı "sivil" dövlətlərinin postsovet məkanında həyata keçirmək istədiyi "normativ diplomatiya" – yəni siyasi islahatları təşviqi və birbaşa proseslərə müdaxilə – artıq ciddi müqavimətlə qarşılaşır.

Batumi insidenti bir daha sübut edir ki, diplomatik nəzakət və balans prinsipi pozulanda, ölkələr arsında nəinki ikitərəfli münasibətlər zədələnir, eyni zamanda, Qərbə qarşı narazılıqlar, sərt reaksiyalar artır. Bu isə regionda ictimai şüurun Qərbə münasibətinin dəyişməsi, "ikili standartlar" hissinin güclənməsi ilə nəticələnir.

Bəli, Qərb diplomatiyasının bəzi təmsilçiləri, xüsusən də Avropa İttifaqı ölkələrinin səfirləri son dövrlər Moldova, Ermənistan, Gürcüstan və bəzən də Azərbaycanda təkcə iqtisadi və mədəni deyil, həm də siyasi proseslərə aktiv şəkildə təsir göstərməyə çalışırlar. Bu, həmin dövlətlərin suveren hüquqlarına qarşı aşkar hörmətsizlikdir.

Batumi insidenti bir daha göstərdi ki, artıq Gürcüstanda da Qərbin, yumşaq desək, bu səhv, yanlış yanaşması ilə barışmayan sosial qruplar formalaşıb. Məsələ artıq təkcə iqtidarla müxalifət arasındakı mübarizə deyil. Bu, Qərbin bölgədə necə qəbul edildiyi və "dost-düşmən" anlayışlarının necə dəyişdiyini göstərən siqnaldır. Bəli, Qərb artıq özünün yalançı "dost maska"ndan imtina edir.

*Məsaim ABDULLAYEV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 106 (30800) 23 may 2025-ci il, cümə

## İdman

### “Zəfər” şahmat turniri



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi məcburi köçkün məktəblilər arasında Böyük Qayıdışa həsr olunmuş “Zəfər” şahmat turniri keçirib.**

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Bakıda “Məmmədyarovlar” şahmat məktəbində təşkil olunmuş turnirdə Qarabağ və Şərqi Zəngəzur təhsil müəssisələrinin 60-dan çox şagirdi iştirak edib.

Yeddi turdan ibarət olan yarışdan sonra oğlanlar və qızlar arasında ilk 3 yerin qalibləri müəyyənləşib, onlara diplom, turnirin bütün iştirakçılarına isə sertifikat təqdim edilib. Beynəlxalq qrossmeyster, “Məmmədyarovlar” şahmat məktəbinin rəhbəri Zeynəb Məmmədyarova qaliblərə ustad dərsi keçib.

Turnirin sonunda qaliblərdən biri ilə Zəngilan rayonunun Ağalı kənd məktəbinin şagirdi arasında onlayn formatda şahmat yarışı təşkil olunub..

### Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq



**Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi və Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) aidiyyətli milli idman federasiyaları ilə (MİF) birgə təşkilatçılığı ilə keçirilən təlim-məşq toplanışı çərçivəsində maarifləndirici seminar təşkil edilib.**

Toplanışın əsas məqsədi yeniyetmə idmançıların Skopye 2025 XVIII Avropa Gənclər Yay Olimpiya Festivalına yüksək səviyyədə və hərtərəfli hazırlığını təmin etməkdir. MOK-un aidiyyətli milli idman federasiyaları ilə təşkil etdiyi təlim-məşq toplanışı mayın 24-dək davam edəcək.

### “Araz–Naxçıvan” yenə futzal çempionu olub



**Futzal üzrə Azərbaycan Yüksək Liqasının qalibi bəlli olub. 19-cu turda “Neftçi”yə 6:2 hesabı ilə qalib gələn “Araz–Naxçıvan” çempionluğunu rəsmiləşdirib.**

Naxçıvan təmsilçisi sona 1 tur qalmış 19-cu dəfə ölkə çempionu olub.

Qeyd edək ki, 2025-2026-cı il mövsümündə ölkəmizi UEFA Çempionlar Liqasında təmsil edəcək “Araz–Naxçıva”ın rəqibləri iyulun 3-də keçiriləcək püşkatmada bəlli olacaq.

*LQ URBANOVA*
*XQ*

## Elimizdən – obamızdan

# Turaclar uçub getdi, bostan da uralandı...

**İmişlinin Məzrəli kəndinin yerləşdiyi coğrafi ərazi isti iqlim tipinə aiddir. Burada yolboyu iydə, qovaq, çəkil ağacları ilə yanaşı, üzüm, nar, heyva, gavalı, fındıq bağları da Məzrəliyə xüsusi yaraşıq verir. Aran zonasına daha çox xas olan pambıq tarlaları və bostan sahələri gözəl və cazibədar görünür.**

Mən dağların təmiz havasına, bulaqların saf suyuna, təbiətin gözəlliklərinə öyrəşmişəm. Amma aran kəndinə səyahət etmək də könlümdən keçirdi. Yayda yandırıb-yaxan gündüz günəşinin istisi də, qış axşamlarında kənd evlərinin bacasından çıxan tüstüsü də mənə doğmadır.

Məni bura çəkib gətirən həm də kənd ab-havası, kənd adamlarının təbii hisslərinin saflığı idi. Ötən il bu kənddə Qurban kişinin qonağı olduq. Həyətində çəmən çiçəyinin çayından içdik. Çox mehriban və gülərüzlü insandır... Şura hökuməti dönəmində kolxozda aqronom və briqadir işləyib. Əsil kənd, torpaq adamıdır. Bu kəndin tarixi keçmişi, dünəni və bu günü haqqında elə şövqlə danışırdı ki: “Mən kənd həyatının mənasını xeyli





yaşlanandan sonra daha yaxşı dərk etməyə başladım. Zamanında kolxozda müxtəlif vəzifələrdə işləmişəm, ev, ailə, uşaq sahibi olmuşam. Uşaqlar böyüyüb, 4 övladımın hamısı təhsil və peşə sahibləridir. Mən də təqaüdçü ömrümü yaşayıram, mal-heyvan saxlayıram. Kəndin qayğıları çoxdur. Bu səbəbdən də darıxmağa vaxt yoxdur. Məni yaşadan da elə bu şirin kənd qayğılarıdır.”

Qurban kişi təqvalı insandır. Sözümüz-söhbətimiz yaxşı tuturdu. Hiss edirdim ki, vaxtilə çox kitablar oxuyub. Evində kitabların çoxluğu da bundan xəbər verirdi. Mən Qurban kişiyə müqəddəs “Quran” kitabımızı və bir də təsbeh bağışladım. Dedi ki, xeyir-dualarını bizdən əsirgəməyəcək.

...Məzrəlidə, sanki, təndir içindəydim. Qışdan canımda qalan soyuqdəymədən ta əsər-əlamət qalmamışdı. Yeri-göyü qarsan istiliyin əlindən köçümüzü sərin bir yerə çəkmək istəyirdik. Qurban kişinin oğlu Gündüz bostanın o başında görünən tənha qovaq ağacını göstərib dedi:

– Müəllim, axtardığımız sərinliyi o tənha qovağın kölgəsində tapa bilərik...

...Yaşı əsrə, başı qəsrə dayanan tənha qovağın dibində oturduq. Qovağın da, bizim də qəlbimizdə bir ümid parladı. Mən hələ uşaq yaşlarımdan ağaclarla insanların bir-birinə simsar, həyan olması haqqında rəhmətlik atamdan eşitmişdim. Bu gün də kənd yerlərində ömrü ağaclara qulluq etməklə keçən, ağacın birini min eləyən insanlar var.

Məzrəlinin dağı, meşəsi olmasa da, buranın öz fərqli gözəlliyi var. Elə Gündüzün öz əlləri ilə bir-bir yığdığı böyürtkənlərin dadının da əvəzi yoxmuş:

**Yeyirəm, deyirəm bu nə xəyaldır,**
**Bəlkə, yanılıram, yediyim baldır?!**

Gündüzün daxili dünyasının zənginliyi hər sözündən-söhbətindən aydın olur. Məzrəlidən ayrılanda mənə bir-iki dənə də şamama verdi. Dedi ki, bu yemişin ətrini duyduqca, kəndimizi yaddan çıxarmayacaqsınız...

...Bakıya qayıtdım. Evimizdəki balaca iş otağım Məzrəli şamamasının ətrinə bələndi. Aylarla evimizdən şamama ətri çəkilmədi. Bu da Məzrəli kəndindən yadda qalan ətirli və xətirli bir xatirəyə döndü. Qurban kişiyə minnətdarlıq duyğusu ilə telefon açıb dedim:

– Haqqını halal eylə, Qurban kişi!

Qurban kişi dedi ki, halal xoşunuz olsun. Evin ruzisi də, elin bini-bərəkəti də qonaqla gələr. Siz gedəndən sonra turaclar da uçub getdi, bostan uralandı, şamamalar tağdan aralandı...

Bu ətirli duyğular səbəbindən könlümdən yenə bir yay günü bostanda şamamanı tağdan qoparıb qoxlamaq, xallı turacların nəğməsini dinləmək keçir. Xəyalım yenə Məzrəlinin tağlar başındakı tənha qovağın kölgəsindən dolanıb geri qayıdır. Ətirli və xətirli duyğularım dilə gəlir:

**Bürküləri yara-yara,**
**Gəldim yollar yora-yora,**
**Demə sən hara, mən hara?!**
**Mənə, Məzrəli, Məzrəli.**
**Şəhərlərə yovuşmazam,**
**Mən ki, tel-tel ötən sazam,**
**Gərək sənə şeir yazam,**
**Sənə, Məzrəli, Məzrəli.**
**Var taxçası, var daxılı,**
**Bostançın şirin yuxulu,**
**Yatır şamama qoxulu,**
**Yenə, Məzrəli, Məzrəli.**
**Gün vurub, otlar saralı,**
**Böyürtkənlər qaralı,**
**Nə yazım səndən aralı**
**Günə, Məzrəli, Məzrəli?!**

*Həzi HƏSƏNLİ,*
*şair- publisist*

## Sağlamlıq

# Qızartma və qazlı su – əriyər gözün nuru

**Sodalı su, kolbasa və qızardılmış kartof görmə qabiliyyətini pisləşdirir. Bunu rusiyalı professor, tibb elmləri doktoru Natalya Şilova açıqlamasında bildirib.**

Onun sözlərinə görə, şirin qazlı içkilər və qidalara əlavə edilən istənilən şəkər gözlərə mənfi təsir göstərir.

O deyib: “Qanda qlükozanın sürətli artması torlu qişanın ən kiçik damarlarını zədələyir. Şəkər molekulları zülallara yapışaraq kapilyar divarların elastikliyini itirməsinə səbəb olur. Bütün bunlar diabetik retinopatiyaya (gözün tor qişasının zədələnməsi) erkən katarakta və bütün göz strukturlarının sürətlənməsinə səbəb olur”.




Həkim gündə 25 qrama qədər şəkər qəbul etməyi məsləhət görür. Bu normaya əsaslanaraq, məsələn, həftədə iki dəfə bir şüşə limonad içə bilərsiniz.

Öz növbəsində, kolbasa, basdırma və sosiska emal edilmiş qidalardır. Nitritlər və nitratlardan məhsullara iştaha açan çəhrayı rəng vermək üçün istifadə olunur.

Bununla belə, bu maddələr nitrozaminlər əmələ gətirir – kapilyar endoteli və retinanın mikrodamarlarını zədələyən birləşmələr.

Qızdırılmış yağda bişmiş kartof qızartması və digər yeməklər də gözə zərərlidir.

“Yağların yenidən qızdırılması onlarda trans yağ və peroksidləşmiş lipidlərin əmələ gəlməsinə səbəb olur. Onlar xroniki iltihabı təhrik edir və tor qişanın mərkəzinin qoruyucu piqmentini yeyir, bu da yaşa bağlı makula degenerasiyasının, kontrastın və görmə itiliyinin azalmasının inkişafını sürətləndirir”.

Beləliklə, bir doyumluq kartof qızartması həftədə bir dəfədən çox yeyilməməlidir.

*Z.HÜSEYNLİ*
*XQ*

# Göygöl yolu təzələnir



**Göygöl rayonunda Göygöl–Topalhəsənli–Şəhriyar avtomobil yolunun 8-ci kilometrindən ayrılan Zurnabad–Gəncə–Mollacəlilli avtomobil yolu layihəsinin icrasına başlanılıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən mətbuata verilən məlumata görə, 3 yaşayış məntəqəsini birləşdirən və ümumi uzunluğu 10,2 kilometr olan Zurnabad–Gəncə–Mollacəlilli avtomobil yolu layihəsi üzrə ilkin olaraq uzunluğu 5,2 kilometr olan Zurnabad–Gəncə qəsəbəsi hissəsində yenidənqurma işlərinə start verilib.

Layihə üzrə yolların eni 9-10 metrə qədər genişləndirilir. Aparılan işlər çərçivəsində hazırda layihənin Zurnabad–Gəncə qəsəbəsi hissəsində torpaq işləri, suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü boruların inşası aparılır. Bununla yanaşı, layihənin sözügedən hissəsinin 1-ci kilometrində bir aşırımlı olmaqla yeni körpünün tikintisinin də icrası nəzərdə tutulur.

Layihənin 5 kilometr uzunluğa malik Mollacəlilli hissəsi üzrə sözügedən işlərlə yanaşı, səkilərin tikintisi və bərpası, yeraltı kommunikasiya xətlərinin baxış qapaqlarının layihə hündürlüyünə qaldırılması işləri də nəzərdə tutulur.

*XQ*

## HAVA

# Yağmursuz və dumanlı cümə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyin Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 23-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq.**



Əsasən yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 15-17°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-75 , gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 13-18° , gündüz 26-31°, dağlarda gecə 5-10°, gündüz 15-20° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 985
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00